8 may 2024 №35 (2100)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Slovakiya-Azərbaycan əlaqələrində yeni səhifə açılır

### Ağdamın Qərvənd kəndini Slovakiya şirkəti quracaq



Bu gün Slovakiya-Azərbaycan əlaqələrində yeni səhifə açılır. Ümid edirəm ki, bizim müştərək yolumuz çox uğurlu olacaq.

Azərbaycan Prezidenti İlham Əliyev bu sözləri mayın 6-da Bakıda Slovakiyanın Baş naziri Robert Fitso ilə görüşdən sonra mətbuata bəyanatında söyləyib.

Dövlətimizin başçısı diqqətə çatdırıb ki, Azərbaycan–Slovakiya əməkdaşlığının bir istiqaməti də azad edilmiş torpaqlarda bərpaquruculuq ilə bağlıdır. Ağdam rayonunun Qərvənd kəndinin yenidən qurulması Slovakiya şirkəti tərəfindən icra ediləcək.

"Bu da təbii ki, böyük rəmzi məna daşıyır, çünki əlaqələrimizin səmimiyyətinin dərəcəsini göstərir. Eyni zamanda, işğaldan azad edilmiş torpaqlarda ən müasir standartlara cavab verən "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyası əsasında slovakiyalı mütəxəssislər tərəfindən görüləcək işlər oraya qayıdacaq insanları sevindirəcək", – deyə İlham Əliyev bildirib.

Biz Azərbaycan ilə Avropa İttifaqı arasında körpü olmağa hazırıq. Avropa İttifaqında Azərbaycanda olan obyektiv vəziyyəti təqdim etmək istəyirik.

Bunu isə Slovakiyanın Baş naziri Robert Fitso deyib.

Azərbaycanın öz suveren siyasəti ilə nümunəvi ölkə olduğunu bildirən Baş nazir "Siz ədalətsizliyə sinə gərirsiniz. Mən eyni yanaşmanı Slovakiyada tətbiq etməyə çalışacağam ki, Slovakiya da suveren xarici siyasət apara bilsin", – deyə əlavə edib.

***

Qeyd edək ki, mayın 7-də Azərbaycan-Slovakiya sənədlərinin imzalanması mərasimi olub. Prezident İlham Əliyev və Baş nazir Robert Fitso "Azərbaycan Respublikası ilə Slovakiya Respublikası arasında strateji tərəfdaşlığın yaradılması haqqında Birgə Bəyannamə"ni imzalayıblar. Həmçinin iki ölkənin müvafiq nazirlikləri arasında hərbi-texniki əməkdaşlıq sahəsində memorandum və müdafiə sahəsində əməkdaşlıq haqqında saziş imzalanıb.

## "Xarıbülbül"ün səsi Şuşadan Laçına və bütün yurda yayılacaq

Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 11–13 may tarixlərində "Xarıbülbül" VII Beynəlxalq Musiqi Festivalı keçiriləcək. Bu il 35 yaşını qeyd edən festival Şuşa və Laçın şəhərlərində gerçəkləşəcək.

Məlum olduğu kimi, Şuşa şəhəri 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan olunub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ötən ilin noyabrında bununla bağlı tədbirlər haqqında sərəncam imzalayıb. "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı da bu il İslam dünyası ölkələri arasında mədəni əlaqələrin inkişafına töhfə verəcək. Festival iştirakçıları arasında həm də ICESCO-ya üzv ölkələrdən ifaçılar və yaradıcı kollektivlər yer alacaq.

Festivalın proqramı iştirak edəcək ifaçılarla yanaşı, həm də repertuar və fərqli təqdimatlarla yadda qalacaq.

Mayın 11-də Cıdır düzündə "Şuşa – İslam dünyasının mədəniyyət paytaxtı – 2024" ilinin və "Xarıbülbül" VII Beynəlxalq Musiqi Festivalının açılış konserti keçiriləcək. Ertəsi gün festival iştirakçılarının rəngarəng çıxışları olacaq.








Festival mayın 13-də Laçında davam edəcək. Həkəri çayı ətrafında qonaqlara bir sıra ölkələrdən gələn ifaçıların təqdimatında konsert təqdim olunacaq.

Qeyd edək ki, Şuşanın rəmzi olan gülün adını daşıyan "Xarıbülbül" Musiqi Festivalı 1989-cu ildən keçirilir. Festival həmin ilin may ayında məşhur xanəndə, Xalq artisti Seyid Şuşinskinin 100 illik yubileyi ilə əlaqədar Ağdam rayonunun Abdal Gülablı kəndində başlayıb, Şuşada davam edib və Ağdamda yekun konsertlə başa çatmışdı. 1990-cı ildən "Xarıbülbül" festivalı beynəlxalq status alıb. Həmin il və 1991-ci ildə əsas konsertlər Ağdamda təşkil edilib. Festivalın bir sıra konsertləri Bərdə və Ağcabədidə olub. 1992-ci ildə Şuşanın işğalından sonra festival keçirilməyib.

2020-ci ilin Vətən müharibəsindəki tarixi Zəfərimizlə torpaqlarımız işğaldan azad olunduqdan sonra festival yenidən Şuşaya qayıdıb. Bu il isə festivalın məkanı genişlənərək Laçın şəhərini də əhatə edir.

## Ölkəmiz Ankarada mədəniyyət festivalında təmsil olunub

Ankara Keçiören Bələdiyyəsi Hıdırellez mövsümi bayramı münasibətilə beynəlxalq mədəniyyət festivalı keçirib.

Festival çərçivəsində Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Şimali Kipr Türk Cümhuriyyətinin diplomatik nümayəndəlikləri milli stendlərini təqdim ediblər.

Ölkəmizi tədbirdə səfirliyimiz və onun nəzdindəki Azərbaycan Mədəniyyət Mərkəzi təmsil edib. Qonaqlar Azərbaycan stendində milli mədəniyyətimizə dair suvenirlər, nəşrlərlə tanış olub, milli mətbəximizə aid yemək və şirniyyatlara qonaq ediliblər.

Keçiören Bələdiyyəsinin sədri Mesut Özarslan Türk dünyasında baharın gəlişi kimi qeyd olunan Hıdırellez bayramı haqqında məlumat verərək, unudulmaqda olan adət və ənənələrin bərpasının önəmindən danışıb, bu bayramların gözəl ənənələrin göstəricisi olduğunu söyləyib.

İştirakçı ölkələrin diplomatları, o cümlədən Azərbaycan səfiri Rəşad Məmmədov bələdiyyənin fəxri diplomu ilə təltif olunub.

Bədii proqramda bir sıra ölkələrin rəqs kollektivləri milli rəqslərini təqdim ediblər. AMM-in təqdimatı da maraqla qarşılanıb. Konsert proqramından sonra Hıdırellez bayramının müxtəlif adət-ənənələri icra olunub.



## Mədəniyyət xadimlərinə "Heydər Əliyevin 100 illiyi" yubiley medalı təqdim edilib

Mayın 7-də bir sıra mədəniyyət və incəsənət xadimlərinə "Heydər Əliyevin 100 illiyi (1923–2023)" yubiley medalının təqdimetmə mərasimi keçirilib. Qeyd olunub ki, medalın mədəniyyətimizin böyük hamisi Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü ərəfəsində təqdim edilməsi xüsusilə əhəmiyyətlidir və simvolik məna daşıyır.

səh. 2

## Azərbaycanın turizm imkanları Dubay sərgisində

Azərbaycanın turizm imkanları 6–9 may tarixlərində keçirilən "ATM Dubai – 2024" (Arabian Travel Market – 2024) beynəlxalq turizm sərgisində tanıdılır.

Yaxın Şərq bazarı üçün əsas turizm tədbirlərindən hesab olunan sərgidə B2B (biznesdən biznesə) görüşlər keçirilir, yerli və xarici turizm sənayesi nümayəndələri arasında əməkdaşlıq imkanları müzakirə olunur.

Milli stendimizdə ölkəmizi Azərbaycan Turizm Bürosu (ATB) ilə yanaşı, AZAL, "Şahdağ" Turizm Mərkəzi, hotellər və turizm şirkətləri daxil olmaqla 34 yerli tərəfdaş təmsil edir.



Stendin ziyarətçilərinə ənənəvi turizm məhsulları haqqında məlumat verilir, Azərbaycanın təbiət turizmi imkanları VR vasitəsilə təqdim edilir, milli şirniyyatların dequstasiyası imkanı yaradılır.

Sərgi ərəfəsində, mayın 3-də Dubay şəhərində qlobal turizmin inkişafı, innovativ yanaşma və imkanlara həsr olunmuş "Phocuswright WiT" Orta Şərq konfransı çərçivəsində keçirilən panel müzakirələrdə ATB-nin baş icraçı direktoru Florian Zenqstşmid Azərbaycanın turizm potensialı haqqında təqdimatla çıxış edib.

Qeyd edək ki, 8 iyul 2023-cü ildən etibarən Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) arasında 90 günə qədər qalma imkanı verən vizasız gediş-gəliş rejimi tətbiq olunur. Ötən il ölkəmizə 41085 nəfər BƏƏ vətəndaşı səfər edib ki, bu da 2022-ci illə müqayisədə 11,4 faiz artım deməkdir. Cari ilin ilk 4 ayı ərzində ölkəmizə gələn BƏƏ vətəndaşlarının sayında ötən ilin eyni dövrü ilə müqayisədə 22 faiz artım müşahidə olunub.

## Vindzor Kral Atçılıq Şousunda Azərbaycan şöləni



Böyük Britaniyada ənənəvi olaraq təşkil olunan "Vindzor Kral Atçılıq Şousu"nda (1–5 may) Azərbaycan nümayəndə heyəti bu il də böyük coşqu ilə qarşılanan proqramla iştirak edib.

Heydər Əliyev Fondunun dəstəyi və Azərbaycan Respublikası Atçılıq Federasiyasının təşkilatçılığı ilə Dövlət Sərhəd Xidmətinin (DSX) rəqs ansamblı, 20 Qarabağ atından ibarət süvarilər dəstəsi və "Land of Fire" polo komandasının daxil olduğu nümayəndə heyəti 1–5 may tarixlərində keçirilən tədbirə qatılıb.

Qarabağ atları, milli musiqimiz və Azərbaycan rəqslərindən ibarət "Koroğlu" adlı şou-kompozisiya izləyiciləri heyran edib. 100 mindən artıq tamaşaçının izlədiyi şou-kompozisiyada Koroğlu rolunu Xalq artisti Yusif Eyvazov və Əməkdar artist Tural Ağasiyev, Nigar rolunu Əməkdar artist Afaq Abbasova və Fatimə Cəfərzadə peşəkarlıqla ifa ediblər.

davamı səh. 8-də

## "Xalçalarda yaşayan tariximiz"



Əməkdar rəssam Taryer Bəşirovun 65 illik yubileyi münasibətilə mayın 3-də Azərbaycan Milli Xalça Muzeyində "Xalçalarda yaşayan tariximiz" adlı fərdi sərgisi açılıb.

Tədbirdə çıxış edən Milli Xalça Muzeyinin direktor vəzifəsini müvəqqəti icra edən Mira Məmmədxanova bildirib ki, Mədəniyyət Nazirliyi və muzeyin təşkilatçılığı ilə "Xalçaçı günü" (5 may) ərəfəsində keçirilən sərgi rəssamın ilk fərdi yaradıcılıq sərgisidir.

davamı səh. 5-də

## 13 yaşında səhnəyə çıxan dünyaşöhrətli kinorejissor

Əjdər İbrahimovun adı çəkiləndə təkcə Azərbaycanda deyil, bir sıra yaxın-uzaq ölkələrdə kino sənəti yada düşür. Kino təşkilatçısı kimi də tanınan, Azərbaycanın və SSRİ-nin Xalq artisti olan sənətkar diqqətəlayiq ekran əsərləri ilə tamaşaçıların rəğbətini qazanıb. Görkəmli rejissoru anadan olmasının 105 illiyi münasibətilə anırıq.



səh. 6



"Naxışların izi ilə..." – gənc rəssamın sərgisi

səh. 2



"Bülbülün qonaqları"nda Qara Qarayev yad olunub

səh. 3



Əhməd Cavada həsr olunan qiraət axşamı

səh. 4

# Baş nazir Kahramanmaraşda "Azərbaycan məhəlləsi"nin inşası ilə tanış olub



Türkiyədə rəsmi səfərdə olan Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov mayın 7-də Kahramanmaraş vilayətində "Azərbaycan məhəlləsi"ndə aparılan tikinti işlərinin gedişi ilə tanış olub. Bu barədə Nazirlər Kabinetindən məlumat verilib.

Bildirilib ki, Prezident İlham Əliyevin tapşırığına əsasən, ölkəmiz 2023-cü il fevralın 6-da Türkiyədə baş verən dağıdıcı zəlzələdən zərər çəkmiş Kahramanmaraş vilayətində yeni məhəllənin tikintisinə dəstək göstərib.

2023-cü il sentyabrın 25-də Naxçıvan şəhərində bununla bağlı imzalanmış hökumətlərarası Əməkdaşlıq Sazişinə uyğun olaraq, layihənin həyata keçirilməsi üçün Azərbaycan hökuməti tərəfindən 100 milyon dollar məbləğində vəsait ayrılıb.

Azərbaycan tərəfinin icraçı qurumu olan Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbəri Sadiq Sadıqov layihə çərçivəsində görülən işlərin gedişi barədə Əli Əsədova məlumat verib.

Baş nazir tikinti işlərinin vaxtında və yüksək keyfiyyətlə həyata keçirilməsi ilə bağlı müvafiq tapşırıqlar verib.

# Şamaxıda Heydər Əliyev mərkəzlərinin ümumrespublika toplantısı




Heydər Əliyev Mərkəzinin və Mədəniyyət Nazirliyinin birgə təşkilatçılığı ilə mayın 7-də Şamaxı şəhərində ölkə üzrə Heydər Əliyev mərkəzlərinin toplantısı keçirilib.

Ulu öndərin anadan olmasının 101-ci ildönümünə həsr edilən toplantı müasir Azərbaycanın memarı Heydər Əliyevin irsinin, dövlətçilik ənənələrinin, inkişaf strategiyasının öyrənilməsi və təbliği məqsədilə silsilə tədbirlər çərçivəsində keçirilib.

Mədəniyyət nazirinin müavini Səadət Yusifova toplantıda Ulu öndərin dövlətçilik fəlsəfəsinin, siyasi irsinin öyrənilməsinin vacibliyini qeyd edib, onun misilsiz tarixi xidmətlərinin tədqiq və inkişaf etdirilməsində Heydər Əliyev mərkəzlərinin rolunu vurğulayıb.

Heydər Əliyev Mərkəzinin (Bakı şəhəri) departament direktoru Rəna Məmmədova mərkəzin fəaliyyəti haqqında danışıb, Heydər Əliyev irsinin öyrənilməsi, geniş təbliği və tətbiqi məqsədilə silsilə tədbirlərin, ekskursiyaların, müxtəlif yaş qruplarını əhatə edən layihələrin həyata keçirildiyini, "Heydər Əliyev və Azərbaycan tarixi" ümumrespublika bilik yarışlarının təşkil edildiyini bildirib.

Şamaxı, Suraxanı (Bakı), Masallı, Zərdab, Şabran, Tərtər, Qax, Neftçala, İmişli rayon və Gəncə şəhər Heydər Əliyev mərkəzlərinin direktorları Ulu öndərin irsinin araşdırılması istiqamətində təmsil etdikləri qurumların fəaliyyətindən, həyata keçirilən layihələrdən bəhs ediblər.

# Xalq yazıçısı İsmayıl Şıxlının 105 illiyinə həsr olunmuş tədbir



Mayın 7-də Yasamal rayon Heydər Əliyev Mərkəzində Xalq yazıçısı İsmayıl Şıxlının (1919–1995) anadan olmasının 105 illiyinə həsr olunmuş tədbir keçirilib.

Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru Lətifə Məmmədova görkəmli yazıçının həyat və fəaliyyətindən danışıb, onun tarixi şəxsiyyət kimi Azərbaycanın müstəqilliyi yolunda böyük xidmətlərinin olduğunu vurğulayıb.

Sonra İsmayıl Şıxlının 105 illiyinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Milli Məclisin deputatı Aydın Mirzəzadə çıxışında İsmayıl Şıxlı yaradıcılığının çox zəngin olduğunu bildirib. Qeyd edib ki, yazıçının "Dəli Kür" romanı Azərbaycan ədəbiyyatında bu janrın ən uğurlu nümunəsidir. XIX əsrdə baş verən mürəkkəb tarixi proseslərdən geniş şəkildə bəhs edən əsər Azərbaycan ədəbiyyatı üçün olduqca böyük önəm daşıyır.

Filologiya elmləri doktoru, BDU-nun professoru Qulu Məhərrəmli, "Dədə Qorqud" Milli Fondunun rəhbəri, "Azərbaycan dünyası" jurnalının təsisçisi Eldar İsmayıl, Moldovanın Azərbaycandakı səfiri Aleksandr Esaulenko və digər çıxış edənlər ədibin yaradıcılığından söhbət açıblar.

Qeyd edilib ki, ədəbiyyat tariximizə dəyərli əsərlər bəxş etmiş İsmayıl Şıxlı həm də azərbaycançılıq məfkurəsinin formalaşmasında, müstəqillik hərəkatında mühüm fəaliyyət göstərib, fəal ictimai-siyasi xadim olub.

Sonda çıxış edən ədibin oğlu, Azərbaycan Jurnalistlər Birliyinin sədri Elçin Şıxlı atasının ömür yolundan bəhs edib, tədbirin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirib.

# "Ölkəmiz dünyaya həm də mədəniyyət diplomatiyası ilə təsir etməlidir"

## Mədəniyyət xadimlərinə "Heydər Əliyevin 100 illiyi" yubiley medalı təqdim olunub

Mayın 7-də Milli Azərbaycan Tarixi Muzeyində bir sıra mədəniyyət və incəsənət xadimlərinə "Heydər Əliyevin 100 illiyi (1923–2023)" yubiley medalının təqdimetmə mərasimi keçirilib.



Tədbirdə çıxış edən mədəniyyət naziri Adil Kərimli medala layiq görülən mədəniyyət xadimlərinə təbriklərini çatdırıb, bu yüksək təltifi Prezident İlham Əliyevin mədəniyyət sahəsinə göstərdiyi diqqət və qayğının daha bir təzahürü kimi qiymətləndirib: "Heydər Əliyevin 100 illiyi (1923–2023)" yubiley medalının hər birimiz üçün xüsusi əhəmiyyəti vardır. Çünki bu medalla təltif edilənlər Ulu öndər Heydər Əliyevin diqqət və qayğısı ilə Azərbaycan mədəniyyətinə töhfələr veriblər".

Qeyd olunub ki, medalın mədəniyyətimizin böyük hamisi, Ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü ərəfəsində təqdim edilməsi xüsusilə əhəmiyyətlidir və simvolik məna daşıyır.

Ölkəmizin dünyaya həm də mədəniyyət diplomatiyası ilə təsir etməli olduğunu deyən nazir bildirib ki, Ali Baş Komandanımızın rəhbərliyi altında şanlı Ordumuzun döyüş meydanında qazandığı Qələbəni mədəni zəfərimizlə rövnəqləndirməliyik: "Bu da, sözsüz ki, cənab Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dəstəyi ilə həyata keçəcək və bununla Azərbaycan mədəniyyəti beynəlxalq aləmdə daha geniş tanınacaq. Xalqımız sizin adınız və xidmətinizlə qürur duyur. İnanıram ki, sizlər – Ulu öndər Heydər Əliyevin dəstəyini görmüş mədəniyyət xadimləri – onun mədəni irsə diqqət və qayğı prinsiplərini gələcək nəsillərə ötürəcəksiniz. Bu, yeni nəsillər üçün çox əhəmiyyətlidir".




Nazir çıxışının sonunda ölkəmizin mədəniyyət ictimaiyyəti adından Azərbaycan mədəniyyəti və incəsənətinə göstərdiyi davamlı dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığını ifadə edib.

Daha sonra "Heydər Əliyevin 100 illiyi (1923–2023)" yubiley medalı sahiblərinə təqdim edilib. Mədəniyyət xadimləri yüksək təltifə layiq görüldüklərinə görə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, "Heydər Əliyevin 100 illiyi (1923–2023)" yubiley medalı Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli Qanunu ilə təsis olunub. Azərbaycan vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, Azərbaycanın və xarici ölkələrin dövlət və digər qurumlarının, beynəlxalq təşkilatların nümayəndələri bu medalla təltif edilə bilərlər.

**Lalə**

# "Qonaq teatr"ın budəfəki iştirakçısı Türkiyədən gəlib

## Trabzon teatrının "Neytral zona"sı

Mədəniyyət Nazirliyi və Azərbaycan Teatr Xadimləri İttifaqının (ATXİ) təşkilatçılığı ilə həyata keçirilən "Qonaq teatr" layihəsi çərçivəsində Trabzon Sənət Teatrı Bakıda çıxış edib. Türkiyəli sənətçilər ATXİ-nin səhnəsində yazıçı-dramaturq Firuz Mustafanın "Neytral zona" əsəri əsasında hazırladıqları tamaşanı təqdim edib.

Tamaşadan öncə çıxış edən ATXİ sədri vəzifəsi səlahiyyətlərini icra edən Xalq artisti Hacı İsmayılov artıq iki ildir keçirilən layihə haqqında danışıb, ilk dəfə bu səhnədə çıxış edən Trabzon Sənət Teatrı haqqında məlumat verib. Bildirib ki, 1993-cü ildən fəaliyyət göstərən sənət ocağının yaradıcısı və bədii rəhbəri Necati Zengindir. O, teatrda çox sayda tamaşaya quruluş verib.



Türkdilli xalqların dramaturgiya nümunələri də teatrın repertuarında mühüm yer tutur. Teatr 2006 və 2009-cu illərdə Gürcüstanda qastrollarda iştirak edib. İndi isə Azərbaycanda səfərdədir.

Diqqətə çatdırılıb ki, Firuz Mustafanın "Neytral zona" əsəri Azərbaycan, Türkiyə, Ukrayna və Rusiyanın teatrlarında oynanılıb. Trabzon teatrında ərsəyə gələn səhnə əsərinin bədii rəhbəri Necati Zəngin, rejissoru Cemre Can Avcıdır.

Sonra tamaşa nümayiş olunub.

Nümayişdən sonra Trabzon Sənət Teatrının bədii rəhbəri Necati Zenginə Türkiyə-Azərbaycan mədəni əlaqələrinin inkişafında xidmətlərinə görə ATXİ-nin mükafatı təqdim edilib. Həmçinin Əməkdar incəsənət xadimi Firuz Mustafa "Neytral zona" tamaşasının orijinal ədəbi materialına görə ittifaqın fəxri fərmanı ilə təltif olunub.

# Rostropoviçlərin muzeyində Ulu öndərə ithaf edilmiş konsert

"Dünyaya çox sayda ədəbiyyat və mədəniyyət korifeyləri vermiş qədim Azərbaycan torpağı haqlı olaraq Sizinlə öz layiqli oğlu kimi fəxr edir" – bu sözlər Ümummilli lider Heydər Əliyevin 70 illik yubileyi münasibətilə dünyaşöhrətli violonçel ifaçısı, dirijor Mstislav Rostropoviçə göndərdiyi təbrik məktubundandır.

Mədəniyyət və incəsənət xadimlərini daim diqqətdə saxlayan Heydər Əliyevin xüsusi rəğbət və ehtiram bəslədiyi korifey sənətkarlardan biri də maestro Mstislav Rostropoviç idi. Məhz Heydər Əliyevin dəvəti ilə Mstislav Rostropoviç uzun illərdən sonra, 1997-ci ildə yenidən Azərbaycana gəlmişdi. Bu iki böyük şəxsiyyətin dostluğu Azərbaycanın mədəniyyət və incəsənətinin inkişafına da böyük töhfə idi.

Leopold və Mstislav Rostropoviçlərin Ev-Muzeyində bu dostluğu əks etdirən dəyərli əlyazma məktublar, fotoşəkillər, sənədlər və başqa maraqlı eksponatlar qorunub saxlanılır. Hər il muzeydə Ulu öndərin əziz xatirəsinə həsr edilmiş tədbirlər təşkil olunur.




Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü münasibətilə muzeydə keçirilən klassik musiqi konserti də bu qəbildəndir.

Konsertdə fleyta ifaçıları – Əməkdar artist Nicat Salmanov və respublika müsabiqələri laureatı Nərminə Salmanova çıxış ediblər. Onların ifasında F.Əmirovun "Aşıqsayağı", P.Taffanelin "Andante Pastoral et Scherzettino", F.Şopenin "Noktürn", Q.Faurenin "Fantaziya" və başqa dünya klassiklərinin əsərləri konsertmeyster Leyla Zeynalovanın müşayiəti ilə səsləndirilib.

# "Naxışların izi ilə..."

Xətai Sənət Mərkəzində gənc rəssam Fidan Əmirovanın Ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş "Naxışların izi ilə..." adlı fərdi sərgisi keçirilib.

Mayın 4-də təşkil olunan sərgidə rəssamın 30-dan çox dekorativ-tətbiqi sənət əsəri yer alıb. Təqdim olunan əsərlərdə müxtəlif texnikaları əhatə edən xalça elementləri əksini tapıb.

Tədbirdə Xalq rəssamları Ağaəli İbrahimov, Aydın Rəcəbov, Əməkdar rəssam Məmmədhüseyn Hüseynov, sənətşünas, Əməkdar incəsənət xadimi Ziyadxan Əliyev, Milli Konservatoriya nəzdində Musiqi Kollecinin direktoru Əməkdar incəsənət xadimi Nazim Kazımov, Xətai Sənət Mərkəzinin direktoru Zahid Əvəzov və başqaları çıxış ediblər.

Vurğulanıb ki, Ulu öndər Heydər Əliyev hər zaman milli mədəni irsə, xalçaçılıq sənətinə, mədəniyyət və incəsənət xadimlərinin yaradıcılığına xüsusi diqqət yetirib.

Çıxış edənlər gənc rəssamın əsərlərinin ideya-bədii xüsusiyyətləri haqqında söz açıb, müəllifə təbriklərini çatdırıblar.

# "Çün bahar oldu..."

## Muzeydə "Yaşıl dünya naminə həmrəylik ili" konserti

Mayın 7-də Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin filialı olan Niyazinin Mənzil-Muzeyində "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş tədbirlər çərçivəsində "Çün bahar oldu..." adlı musiqi axşamı təşkil edilib.

Musiqi Mədəniyyəti Dövlət Muzeyinin şöbə müdiri Xanım Abdinova giriş sözündə ölkə başçısının müvafiq sərəncamı ilə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi barədə danışıb, yeniyetmə və gənclərə ekoloji tərbiyənin aşılanması və ekoloji maarifləndirmənin əhəmiyyətindən söz açıb. Təbiətin tərənnümü mövzusunun Azərbaycan incəsənətində, o cümlədən musiqi sənətində xüsusi yer tutduğu vurğulanıb.

Musiqişünas və vokalçı Sevinc İbrahimovanın iştirakı ilə keçirilən konsert proqramında Azərbaycan bəstəkarlarının doğma



vətənimizi, təbiətimizi, baharı vəsf etdikləri mahnı və romanslar səslənib. Vokalçılar Aysel Abdullayeva və Adil Həsənov da ifaları ilə musiqi axşamına rəng qatıblar.

Sonda Niyazinin Mənzil-Muzeyinin müdiri Əməkdar mədəniyyət işçisi Rza Bayramov Sevinc İbrahimovaya təşəkkürünü bildirib və "Niyazi xatirələrdə" kitabını hədiyyə edib.

# Mədəniyyət naziri Qubada vətəndaşları qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, hər ay mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşlarla görüşləri keçirilir. Görüşlərdə sakinlərin problem və təklifləri dinlənilir, qaldırılan məsələlərin həlli istiqamətində müvafiq addımlar atılır.

Mədəniyyət naziri Adil Kərimlinin iştirakı ilə növbəti vətəndaş qəbulu mayın 6-da Quba rayonunda gerçəkləşib.

Quba şəhərindəki Heydər Əliyev Mərkəzində keçirilən qəbuldan əvvəl nazir və rayonun icra başçısı İlqar Mahmudov Ümummilli liderin mərkəzin qarşısındakı abidəsi önünə gül dəstələri qoyub, xatirəsini ehtiramla yad ediblər.



Mərkəzin foyesində Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü və "Yaşıl dünya naminə həmrəylik ili" münasibətilə nümayiş etdirilən Quba, Qusar və Xaçmaz uşaq incəsənət məktəbləri şagirdlərinin əl işlərindən ibarət rəsm sərgisinə baxış olub.

Qəbulda, əsasən, Xaçmaz, Quba, Qusar, Siyəzən, Şabran rayonlarından olan vətəndaşlar iştirak ediblər. Vətəndaşların müraciətləri işlə təmin olunma, mədəniyyət sahəsi ilə bağlı təkliflər və digər məsələlərlə bağlı olub.

Adil Kərimli vətəndaşların fikirlərini, ayrı-ayrı məsələlərə dair xahiş və təkliflərini dinləyərək hər bir müraciətin operativ şəkildə araşdırılması, qanunvericiliyə uyğun həlli ilə bağlı qəbulda iştirak edən nazirliyin məsul nümayəndələrinə tapşırıqlar verib.

Görüşdə şəhid ailələri və qazilərin qaldırdıqları məsələlərə xüsusi diqqətlə yanaşılması, vaxtında və obyektiv baxılması məqsədilə hər bir müraciət qeydiyyata alınaraq nəzarətə götürülüb.

## Mədəniyyət müəssisələrinə baxış keçirilib

Mədəniyyət naziri Adil Kərimli mayın 6-da Qubada vətəndaşların qəbulundan sonra rayonun bir sıra kəndlərində fəaliyyət göstərən mədəniyyət müəssisələrinə baş çəkib.

Başir Səfəroğlu adına Quba rayon Mədəniyyət Mərkəzinin Qəçrəş kənd Diyarşünaslıq klubu, rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Qəçrəş kənd kitabxana filialı, Qımılqazma kənd klubu və kənd kitabxana filialının fəaliyyəti ilə tanışlıq olub.



Müəssisələrin mövcud vəziyyəti və funksionallığı yerində yoxlanılıb, fəaliyyətin səmərəli təşkili ilə bağlı müvafiq tapşırıq və tövsiyələr verilib.

# "20 ilin sədası" – Heydər Əliyev Fondunun yubileyinə həsr edilmiş konsert




Mayın 4-də Heydər Əliyev Mərkəzində "20 ilin sədası" adlı konsert proqramı təqdim olunub. Konsert Heydər Əliyev Fondunun yaradılmasının 20 illiyinə həsr edilib.

Konserti Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, mədəniyyət naziri Adil Kərimli, Milli Məclisin deputatları və digər qonaqlar izləyiblər.

Proqram Heydər Əliyev Fondunun fəaliyyətinə, mədəniyyət sahəsində gördüyü işlərə dair videoçarxın nümayişi ilə başlayıb. Diqqətə çatdırılıb ki, Heydər Əliyev Fondu 2004-cü ildə Ulu öndərin siyasi irsini əks etdirmək, milli dövlətçilik ideyalarını yeni nəsillərə daim aşılamaq niyyətindən irəli gələrək yaradılıb. Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Fond 20 il ərzində çoxsaylı uğurlara nail olub, mədəniyyət, təhsil, səhiyyə və digər sahələrdə ciddi islahatların aparılmasına töhfəsini verib. Heydər Əliyev Fondu ölkəmizin dünyada təbliği və zəngin dəyərlərimizin tanıdılması istiqamətində də fəaliyyət göstərir.

Fondun yubiley konserti həm iştirakçıları, həm də repertuarı ilə rəmzi məna daşıyıb. 20 yaşı tamam olan Heydər Əliyev Fondu fəaliyyəti dövründə hər zaman gənc istedadlara, onların təhsil almasına, beynəlxalq müsabiqə və festivallarda iştirakına dəstək olub, mədəniyyətimizin geniş təbliğinə yönələn layihələr həyata keçirib. Fondun ayrı-ayrı sahələrdəki layihələri, o cümlədən muğam müsabiqələri, milli, klassik və caz musiqisi ilə bağlı layihələri, müxtəlif musiqi festivalları yeni istedadların üzə çıxarılmasına, onların inkişafına təkan verib.







Konsert proqramında məhz bu incəsənət xadimləri – yaradıcılıqlarında Heydər Əliyev Fondunun iz qoyduğu, dəstək göstərdiyi sənətçilər: Azər Zadə (vokal), Azər Zeynalov (vokal), Ceyla Seyidova (violin), Elçin Əzizov (vokal), Emil Əfrasiyab (piano), Elvin Hoca Qəniyev (violin), Fərhad Bədəlbəyli (piano), İsfar Sarabski (piano), Mirələm Mirələmov (xanəndə), Murad Adıgözəlzadə (piano), Samir Cəfərov (vokal), Təyyar Bayramov (xanəndə), İlham Nəzərov (vokal) və digərləri çıxış ediblər.

Hər bir ifaçının çıxışından əvvəl onların Azərbaycan mədəniyyətinin hamisi olan Heydər Əliyev Fonduna təbriklərini əks etdirən qısa videomaterial təqdim olunub.

İfaçıları Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri (dirijorlar: Xalq artisti Yalçın Adıgözəlov, Əməkdar artist Fuad İbrahimov, Mustafa Mehmandarov) müşayiət edib.

Azərbaycan Dövlət Xor Kapellasının (bədii rəhbər Xalq artisti Gülbacı İmanova) və Azərbaycan Dövlət Uşaq Filarmoniyasının xor kollektivinin (bədii rəhbər Dilarə Əliyeva) iştirakı da konsertə xüsusi rəng qatıb.

Gecədə Azərbaycan və dünya bəstəkarlarının əsərləri ilə yanaşı, xalq mahnılarımız, təsnif və muğamlarımız, eləcə də bir sıra filmlərimizə yazılmış bənzərsiz musiqilər səsləndirilib. Yubiley konsertinə "Qarabağ" şikəstəsi ilə yekun vurulub.

# "Minaların və partlamamış hərbi sursatların mədəni mülkiyyətə təsiri"

## Dialoq Forumunun Ağdamda xüsusi sessiyası

Xəbər verdiyimiz kimi, VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində mayın 3-də Ağdamda "Minaların və partlamamış hərbi sursatların mədəni mülkiyyətə təsiri" mövzusunda xüsusi sessiya keçirilib.

Ağdam Konfrans Mərkəzində təşkil olunan sessiyadan əvvəl qonaqlar otuzillik işğal zamanı Ermənistan ordusunun rayon ərazisində basdırdığı minaların, kustar üsulla hazırlanmış partlayıcı qurğuların və partlamamış hərbi sursatların sərgisi ilə tanış olublar. Minatəmizləmə əməliyyatı haqqında qısa film nümayiş etdirilib.

Xüsusi sessiyaya Azərbaycan Respublikasının UNESCO yanında daimi nümayəndəsi, səfir Elman Abdullayev moderatorluq edib.

Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini Başir Hacıyev açılış nitqi ilə çıxış edib. Bildirib ki, bu gün işğaldan azad olunmuş ərazilərimizin hər yerində olduğu kimi, Ağdam, Füzuli və Xocavənd rayonlarında da bərpa-quruculuq işləri yüksək səviyyədə davam etməkdədir. Cari ilin sonuna qədər Ağdamın Sarıcalı, Kəngərli və Xıdırlı kəndlərinə sakinlərin köçü başlayacaq. "Böyük Qayıdış" Dövlət Proqramının birinci mərhələsi üzrə, yəni 2026-cı ilin sonunadək Ağdamda 12 kənd və Ağdam şəhərində 5 yaşayış kompleksi inşa olunacaq.

Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini Fərid Cəfərov qeyd edib ki, Ağdam rayonu ərazisində vaxtilə yüzlərlə mədəni abidə olub. Təəssüflər olsun ki, indi həmin abidələri görə bilmirik. Otuzillik işğal ərzində Ağdamın zəngin mədəni-tarixi irsi dağıdılıb, məhv edilib, eləcə də Ermənistanın müxtəlif yerlərinə daşınıb. Əminəm ki, yaxın gələcəkdə Ağdam çiçəklənəcək, öz əzəmətini yenidən bərpa edəcək.



Nazir müavini bildirib ki, Ağdam dünyanın ən çox minalanmış ərazilərindən biridir. 2020-ci ilin Vətən müharibəsindən sonra 60-dan çox insan mina partlayışı nəticəsində həlak olub, 300-dən çox şəxs yaralanıb. Hazırda minaların təmizlənməsi ilə bağlı işlər davam edir. Bu prosesdə ANAMA təşkilatının gördüyü işlər təqdirəlayiqdir.

ICESCO-nun İslam Dünyası İrs Mərkəzinin direktoru Vebber Ndoro ölkəsi Zimbabvenin minaların təmizlənməsi sahəsində təcrübələrini bölüşüb.

UNESCO üzrə Malta Milli Komissiyasının sədri, mədəni irs üzrə ekspert Raymond Bondin minaların qeyri-maddi mədəni irs nümunələrinə vurduğu ziyandan danışıb.

BMT-nin İnkişaf Proqramının (BMTİP) mütəxəssisi Qadeem Tariq sessiyanın əhəmiyyətini qeyd edib. Söyləyib ki, bu günə qədər Azərbaycan mina təhlükəsi, onun təsirləri ilə bağlı çox konfrans keçirib. Ümid edirik ki, bu gün təşkil edilən sessiya beynəlxalq ictimaiyyətin bu məsələyə diqqətinin cəlb edilməsinə müsbət təsir göstərəcək.

Azərbaycan Respublikası Minatəmizləmə Agentliyi (ANAMA) Beynəlxalq əlaqələr, maarifləndirmə və mətbuatla iş idarəsinin rəisi Ramil Əzizov düşmənin Qarabağa yerləşdirdiyi minalar haqqında məlumat verib. Qeyd edib ki, təkcə Ağdamda onlarla tarixi irs nümunəmiz minalanıb. Düşmən hətta qəbiristanlıqlara belə minalar basdırıb.

Sessiyadan sonra qonaqlar üçün ekskursiya təşkil edilib. Onlar Ağdam şəhərində işğal dövrünün dağıdıcı nəticələrini öz gözləri ilə görüb, aparılan bərpa-quruculuq işləri barədə məlumat alıblar. Qonaqlar Ağdam Dövlət Dram Teatrının qalıqlarına da baxıblar. İmarət kompleksində görülən işlərlə tanışlıqdan sonra təmir və bərpa edilən Ağdam Cümə məscidi ziyarət olunub.

**Nurəddin**

# Filmlərimiz İzmirdə keçirilən festivalda mükafat qazanıb

## Kino Agentliyi də xüsusi mükafata layiq görülüb

2-3 may tarixlərində Türkiyənin İzmir şəhərində ilk dəfə "Qızıl alma" Beynəlxalq Turan Film Festivalı keçirilib.




Türkiyə Mədəniyyət və Turizm Nazirliyi Kino Baş İdarəsi və Dövlət Arxivləri Baş İdarəsinin dəstəyi, TÜRKSOY və Ege Universitetinin təşkilatçılığı ilə gerçəkləşən festivalda Türkiyə, Azərbaycan, Qırğızıstan, Qazaxıstan, Özbəkistan, Türkmənistan və digər ölkələrdən filmlər iştirak edib.

Ekran işləri Türk dünyasının kino xadimlərindən ibarət münsiflər heyəti tərəfindən 13 kateqoriya üzrə qiymətləndirilib. Münsiflər heyətində Azərbaycandan "Hoçazfilm" studiyasının (Laçın şəhəri) direktoru Amil Amal (Amil Məmibəyli) da olub.

O deyib ki, festivalda Azərbaycandan iştirak edən ekran işlərindən Zamin Məmmədovun "Səs" ("Ən yaxşı film") və Ruslan İbrahimlinin "Qara bulud" ("Gənc istedad" kateqoriyası üzrə mükafat) filmləri mükafata layiq görülüb.

Festivalın "İnsan haqlarına töhfə" mükafatı Azərbaycanın Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə, "Kino sənətinə töhfə" mükafatı isə Azərbaycan Respublikası Kino Agentliyinə (ARKA) verilib.

Festivalda Qazaxıstandan "Lullaby" ("Ninni" – rejissor Dilşad Rahmatullin), Qırğızıstandan "Hope" ("Ümid" – Saule Mukanbetova), Özbəkistandan "Taste of Grapes" ("Üzümün dadı" – Dmitri Lebedev), Türkiyədən "Ənənə" (Ali Rza Bəyazid), Türkmənistandan "Ümid" (İsgəndər Muhammet Annamuhammedov) və İrandan "Golinin ən böyük macərası" (Elika Mehranpur) filmləri qalib olub.

"Bizim üçün sevindirici məqamlardan biri də "Qızıl alma" festivalının estafetinin Azərbaycana ötürülməsi oldu. "Hoçazfilm" olaraq növbəti festivalın təşkilində iştirak etməyi planlaşdırırıq", – deyə Amil Amal bildirib.

Onu da qeyd edək ki, Amil Amal münsiflər heyətinin üzvü kimi Ege Universiteti tərəfindən xüsusi mükafata layiq görülüb.

Festival çərçivəsində Türkiyə Dövlət Arxivləri Baş İdarəsinin "Səssiz şahidlər: türk boylarına səyahət" mövzusunda fotosərgisi keçirilib. Türk dünyasının ortaq dəyər və mədəniyyətini özündə əks etdirən sərginin qarşıdakı dövrdə TÜRKSOY-a üzv digər ölkələrdə də açılması nəzərdə tutulur.

Ege Universiteti Atatürk Kültür Mərkəzində keçirilən mükafatlandırma mərasimində türk xalqlarının milli rəqsləri nümayiş etdirilib, musiqilər səsləndirilib.

***

Festivalda "Kino sənətinə töhfə" mükafatına layiq görülən ARKA da bu barədə məlumat yayıb.

Məlumatda qeyd olunur ki, son vaxtlar Kino Agentliyi türkdilli dövlətlərdə keçirilən müsabiqə və festivallarda yaxından iştirak edir. "Qızıl alma" festivalının TÜRKSOY və ARKA tərəfindən dəstəklənməsi bu istiqamətdə tədbirlərdən biridir. ARKA növbəti "Qızıl alma" festivalını Azərbaycanın işğaldan azad olunmuş ərazilərində keçirmək niyyətindədir.

Məlumatda o da vurğulanır ki, Türk dünyasının kino bazarı Azərbaycan film istehsalçıları üçün də maraq kəsb edir. Bu istiqamətdə bir neçə film Qazaxıstan, Türkiyə bazarında nümayiş olunsa da, müəyyən problemlər ucbatından bu proses yarımçıq qaldı. Kino Agentliyi bu problemlərin aradan qaldırılması üçün yerli filmlərin xarici dillərə altyazı və səsləndirmə ilə tərcüməsini həyata keçirməyi planlaşdırır.

**Lalə Əzəri**

# "Bülbülün qonaqları"nda Qara Qarayev yad olunub



Bülbülün Memorial Muzeyinin "Bülbülün qonaqları" layihəsi çərçivəsində Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndəsi, SSRİ Xalq artisti Qara Qarayev yad edilib.

Tədbirdə çıxış edən muzeyin direktoru Fərqanə Cabbarova böyük vokalçı Bülbül ilə Qara Qarayevin sıx dostluq əlaqələrindən söhbət açıb. O, Bülbülün xatirələrində qeyd olunan bəstəkarla bağlı fikirləri bölüşüb.

Sonra musiqi nömrələri səsləndirilib. Azərbaycan Milli Konservatoriyası nəzdində İncəsənət Gimnaziyasının şagirdləri və Bakı Musiqi Akademiyasının tələbələri tərəfindən "Yeddi gözəl" baletindən Adajio, "Don Kixot" qravürlərindən səyahət, "Eskiz" və prelüdlər ifa olunub.

Tədbirdə həmçinin "Yeddi gözəl" baletindən videofraqmentlər nümayiş etdirilib.

Qeyd edək ki, "Bülbülün qonaqları" layihəsində bundan əvvəl bəstəkar, Xalq artisti Süleyman Ələsgərov və yazıçı Məmməd Səid Ordubadi yad olunmuşdu.

№35 (2100)
8 may 2024
www.medeniyyet.az

# Əhməd Cavada həsr olunan qiraət axşamı

Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyası "Urbanda görüşərik" layihəsi çərçivəsində Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük şair, maarifçi və ictimai xadim Əhməd Cavadın (1892–1937) anadan olmasının 132-ci ildönümünə həsr olunan qiraət axşamı keçirib.



AMEA-nın Gəncə Bölməsi Nizami Gəncəvi Mərkəzinin direktoru Əlimuxtar Muxtarov, Gəncə Dövlət Universiteti Azərbaycan və dünya ədəbiyyatı kafedrasının müəllimi Vüsal Hicran çıxış edərək Əhməd Cavadın həyat və yaradıcılığı haqqında məlumat veriblər.

Gecədə qiraətçilərdən İmamverdi Vəliyev, Lalə Həsəncan, Xalidə Nəbiyeva və Məhəmməd Hacıyevin səsləndirdiyi şeirlər maraqla qarşılanıb.

Sonda Xalq artisti Sevinc İbrahimova "Çırpınırdın, Qara dəniz" və Əməkdar artist Tural Abdullayev "Şükriyyə" mahnılarını ifa ediblər.

# "Hophopnamə" kitab mərkəzində təqdimat

Mil-Muğan Regional Mədəniyyət İdarəsi (RMİ) və Azərbaycan Yazıçılar Birliyi Gənclər Şurasının birgə təşkilatçılığı ilə yazıçı İkinci Mahmudun (Mahmud İsmayıl oğlu Ağakişiyev; 1986–2019) xatirəsinə ithaf olunan kitabın təqdimatı keçirilib.




"Hophopnamə" kitab mərkəzində gerçəkləşən tədbirdə RMİ-nin rəisi Faiq Xudanlı, mədəniyyət işçiləri, ictimaiyyət nümayəndələri və gənclər iştirak ediblər.

Mərasimdə BP şirkətinin "Azərbaycanın ədəbi gəncliyini dəstəkləyirik" layihəsi əsasında nəşr olunmuş kitablar təqdim olunub. Layihədə şairlərdən Fərid Hüseynin "Bəyaz ləkə", Şəhriyar del Geraninin "Özümdən məşhur şeirlər", yazıçılardan İkinci Mahmudun "Yersiz ölüm" və Ömər Xəyyamın "Bizim atalarımız, bizim analarımız" kitabları işıq üzü görüb.

Çıxış edən yazarlar ədəbiyyat, mütaliə, mədəniyyət və sənət haqqında fikirlərini bölüşüb, oxucuların suallarını cavablandırıb, məhrum həmkarları haqqında xatirələrini bölüşüblər.

# "Nuhun ayaq izləri" – isveçli rejissor Naxçıvanda film çəkir

Azərbaycanın İsveç Krallığındakı Səfirliyinin təşəbbüsü, Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə isveçli fotoqraf və sənədli film rejissoru Mikael Silkeberq Naxçıvanda film çəkilişlərinə başlayır.



Naxçıvana gələn çəkiliş heyəti mayın 2-də Naxçıvan MR mədəniyyət nazirinin müavini Həsən Seyidovla görüşüb. Nazir müavini hazırlanacaq filmin muxtariyyətin 100 illiyinə qiymətli töhfə olacağını deyib, Naxçıvan tarixinin, mədəniyyətinin təbliği baxımından əhəmiyyətini qeyd edib.

Filmin rejissoru Mikael Silkeberq Naxçıvanın zəngin bir tarixi olduğunu bildirib. Çəkiliş məkanları, filmdə rol alacaq naxçıvanlı aktyorlarla bağlı fikir mübadiləsi aparılıb.

"Nuhun ayaq izləri" adlı filmin çəkilişləri Haçadağ, Əshabi-kəhf ziyarətgahı, Əlincə qalası, Gəmiqaya, Möminə xatın türbəsi, Nuh peyğəmbər türbəsi və digər məkanlarda gerçəkləşəcək.

# Sumqayıt səhnəsindən gələcək "Xeyir xəbər"

Gənclərin səhnə-sənət ideyalarının realizəsi məqsədilə Mədəniyyət Nazirliyi daha bir rejissora dövlət teatrında tamaşa hazırlamaq şəraiti yaradıb. Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında rejissor assistenti kimi çalışan Fuad Cavadzadə Sumqayıt Dövlət Dram Teatrında tamaşa hazırlayacaq.



Gənc rejissor Əməkdar incəsənət xadimi Əli Əmirlinin vətənpərvərlik mövzulu "Xeyir xəbər" pyesinə quruluş verəcək.

Bədii tərtibatını Nizami Dadaşov, musiqi tərtibatını sənətşünaslıq üzrə fəlsəfə doktoru Telman Qəniyev, qrafika-montaj işlərini Sahil Nəzərov həyata keçirir.

Tamaşada Əməkdar artist Elmira Kərimova, aktyorlar Habil Xanlarov, Şəmistan Süleymanlı, Siyavuş Mahmudov, Akif Mirzəyev, Cavanşir Eyyubzadə, Elay Xasıyev, Məryəm Hüseynli, Aynur Hümbətova rol alıblar.

Məlumat üçün bildirək ki, Fuad Cavadzadə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində teatr rejissorluğu ixtisasına yiyələndikdən sonra Mədəniyyət Nazirliyinin dəstəyi ilə təhsilini Türkiyədə davam etdirib, İstanbul Universiteti Dövlət Konservatoriyasında teatr sənəti üzrə magistr təhsili alıb.

# Müasir Azərbaycan dövlətçiliyinin memarı

Ulu öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü münasibətilə bölgələrdə müxtəlif tədbirlər keçirilir.





Zaqatala rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə ümumtəhsil məktəbləri arasında "Azərbaycan xalqının xəzinəsi – Heydər Əliyev" adlı şeir qiraəti və mahnı müsabiqəsi keçirilib. Rayonun 66 təhsil ocağı təmsilçilərinin iştirak etdiyi müsabiqədə Ulu öndərə həsr edilən şeirlər və mahnılar səsləndirilib. Qaliblərin adları 10 may tarixində elan ediləcək.

***

Siyəzən rayon Heydər Əliyev Mərkəzində Ümummilli liderin azərbaycançılıq ideologiyasının gənclər arasında təbliği, gənclərin dünyagörüşünün və intellektual səviyyəsinin artırılması, eləcə də gənclərin asudə vaxtlarının səmərəli təşkil olunması məqsədilə "Xəmsə" milli intellektual oyunu keçirilib. 8 komandanın qatıldığı bilik yarışında ilk üç yeri Siyəzən şəhər 1, 2 və 4 nömrəli orat məktəblərin komandaları tutub.





***

Mərkəzi Aran RMİ-nin təşkilatçılığı ilə regional idarənin əhatəsinə aid olan şəhər və rayonlardakı mədəniyyət müəssisələrinin əməkdaşları arasında "Heydər Əliyev və Azərbaycan mədəniyyəti" adlı bilik yarışı keçirilir.

Yarış seçim mərhələsi (yerli) və final mərhələsi (regional) olmaqla 2 mərhələdə təşkil olunur. Seçim (yerli) mərhələsi mayın 3-də keçirilib. Mingəçevir şəhəri, Ağdaş, Göyçay, Kürdəmir, Ucar, Yevlax və Zərdab rayonlarında təşkil edilən bilik yarışında iştirakçılar Azərbaycan mədəniyyəti, tarixi, coğrafiyası və dünyagörüşünə aid sualları cavablandırıblar.

Yerli mərhələnin qalib komandalarının iştirakı ilə mayın 8-də Ağdaşda final mərhələsi keçiriləcək.

***

Şuşa Dövlət Rəsm Qalereyasının (Bakı şəhəri) təşkilatçılığı ilə "Heydər Əliyev – müasir Azərbaycan dövlətçiliyinin memarı" mövzusunda fotosərgi keçirilib. Tədbirdə Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətlərindən söz açılıb. Sərgidə Ulu öndərin həyatının, siyasi fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotolar nümayiş olunub.

***

Şirvan-Salyan RMİ-nin təşkilatçılığı ilə Biləsuvar rayon Heydər Əliyev Mərkəzində konsert keçirilib. Şirvan şəhər Uşaq musiqi məktəbinin müəllim və şagird kollektivinin ifasında vətənpərvərlik mahnıları səslənib.

Salyan rayon Heydər Əliyev Mərkəzində isə "Heydər Əliyev və dövlət gənclər siyasəti" mövzusunda tədbir təşkil edilib.

***

Qazax rayon Heydər Əliyev Mərkəzi və rayon İslam Nəsibov adına Aşağı Əskipara kənd tam orta məktəbinin birgə təşkilatçılığı ilə "Qəlblərdə yanan əbədi işıq" adlı tədbir keçirilib. Məktəbin müəllim və şagirdlərinin ifasında Heydər Əliyevə həsr olunmuş şeirlər, mahnılar səsləndirilib, ədəbi-bədii kompozisiyalar nümayiş etdirilib.

Tovuz rayon Mərkəzi Kitabxanasının təşəbbüsü ilə Tovuz regional "ASAN Xidmət" mərkəzində səyyar kitab sərgisi təşkil edilib. Ulu öndərin həyat yolu və siyasi fəaliyyəti ilə bağlı kitablar nümayiş olunub.

***

Cəlilabad şəhər 7 saylı tam orta məktəbin şagirdləri rayon Heydər Əliyev Mərkəzinə ekskursiya ediblər. Ekskursiya zamanı şagirdlərə Heydər Əliyevin siyasi fəaliyyəti haqqında məlumat verilib. Sonra məktəblilərə "Heydər Əliyevin dövlətçilik tariximizdəki rolu" mövzusunda açıq dərs keçilib.

Astara Tarix-Diyarşünaslıq Muzeyində "Müstəqil Azərbaycan Heydər Əliyevin şah əsəridir" mövzusunda tədbir təşkil edilib. Tədbirdə Ərçivan qəsəbə Fuad Qasımov adına 1 nömrəli tam orta məktəbin müəllim və şagirdləri iştirak ediblər.

**Hazırladı: N.Məmmədli**

# Yaşıl dünya naminə həmrəy olaq!

Qusar rayon Heydər Əliyev Mərkəzi və rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində 15 may – Beynəlxalq Ailə Gününə həsr olunmuş "Ekoloji düşüncə ailədən başlayır" mövzusunda tədbir keçirilib. Çıxış edənlər ekoloji düşüncə və ekoloji mədəniyyətin yaranmasında ailənin rolundan, milli-mənəvi dəyərlərdən söhbət açıblar. "Təbiəti qoruyaq!" adlı videoçarx nümayiş olunub.

***




Kürdəmir rayonunda fəaliyyət göstərən mədəniyyət müəssisələrinin təşkilatçılığı ilə rayon Heydər Əliyev Mərkəzində "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş tədbir keçirilib. İştirakçılar öncə kitab və rəsm sərgisi ilə tanış olublar. Dəyirmi masa ətrafında davam etdirilən tədbirdə mövzuya aid videoçarx nümayiş olunub.

***

Gəncə Şəhər İcra Hakimiyyəti, Gəncə-Daşkəsən RMİ-nin dəstəyi, Gəncə şəhər Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə "Mədəniyyət vasitəsilə yaşıl həyata çağırış" layihəsinin açılış tədbiri keçirilib.

Qeyd edilib ki, layihə çərçivəsində 2024-cü il ərzində ətraf mühitlə bağlı filmlər nümayiş olunacaq, şagirdlər üçün mövzu üzrə dərslər keçiləcək, ekoloji laboratoriyalar təşkil olunacaq. Müxtəlif müəssisələrlə birgə əməkdaşlıq çərçivəsində ağacəkmə aksiyaları təşkil ediləcək.



Sonra ətraf mühitlə bağlı poster, kitab, jurnal, bülleten, foto və rəsmlərdən ibarət sərgiyə baxış olub. Sərgi məkanında F.Əmirov adına Gəncə Dövlət Filarmoniyası kamera orkestrinin ifasında musiqilər səslənib.

***



Oğuz rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə rayon Mədəniyyət Mərkəzində "Yaşıl dünya naminə birləşək!" adlı rəsm və əl işləri müsabiqəsi keçirilib. Müsabiqədə rayon Uşaq-gənclər inkişaf mərkəzi, Kərimli, Yemişənli, Xalxal, Xaçmaz kəndlərindən məktəblilər, rayon MKS-nin Padar, Bayan, Xaçmaz kənd kitabxana filiallarının əməkdaşları iştirak ediblər. Qaliblər diplom və hədiyyələrlə mükafatlandırılıb.

***

Mil-Muğan RMİ, regional Təhsil İdarəsi, Beyləqan Gənclər evi və digər qurumların təşkilatçılığı ilə "Gələcək – təmiz gələcək" adlı bilik müsabiqəsi keçirilib. "Nə? Harada? Nə zaman?" formatında keçirilən müsabiqədə rayonun tam orta məktəblərinin IX–XI siniflərini təmsil edən 16 komanda iştirak edib. I Şahsevən kənd Fazil Miriyev adına orta məktəb, Dünyamalılar kənd Əlibala Şirinov adına orta məktəb və I Şahsevən kənd Gəray Əsədov adına 1 nömrəli tam orta məktəbin komandaları müvafiq olaraq 1, 2 və 3-cü yerləri tutublar.

# ABŞ səfiri də Qarabağı gördü...

## "Şuşada olmaqdan xoşbəxtəm"




"Biz iki aya yaxındır ki, bu səfərə hazırlaşırdıq və mən şadam ki, bu səfər nəhayət, baş tutdu. Mən bu gün Şuşada olmaqdan xoşbəxtəm" – mayın 6-da Şuşaya səfər edən ABŞ-nin ölkəmizdəki səfiri Mark Libby bu sözləri Cıdır düzündən yayımladığı videomüraciətində bildirib.

Diplomat onun və xanımın çox səmimi qarşılandığını vurğulayıb, qonaqpərvərliyə görə təşəkkür edib: "Bu səfər və şəhərin öz gözlərimlə gördüyüm inkişafı məndə çox böyük təəssürat yaratdı. Azərbaycanın bütün bölgələrinə səfərlərimi davam etdirməyi səbirsizliklə gözləyirəm. ABŞ bu ölkənin iqtisadi inkişafı və insanlarının rifahının dəstəklənməsi üçün çalışmağa davam edəcək".

Səfir Azərbaycan Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimovla görüşüb. Diplomata şəhərin inkişafı üçün görülən işlər və Şuşanın məcburi köçkün icmasının qayıdışı ilə bağlı ətraflı məlumat verilib.

ABŞ səfiri yenidən inşa olunan Füzuli şəhərində də olub. "Füzulidə dağıntıların miqyasını, eyni zamanda yenidənqurma işlərini görəndə çox təsirləndik. Birləşmiş Ştatlar USAID, Siyasi-Hərbi Məsələlər Bürosu, Əhali, Qaçqınlar və Miqrasiya Bürosu və bir çox digər agentliklər və beynəlxalq təşkilatlar vasitəsilə müstəqillik qazandıqdan sonra Azərbaycana 1,5 milyard dollardan çox yardım göstərib. Buraya məcburi köçkün icmalarına 250 milyon dollardan çox ayrılmış yardım və minaların təmizlənməsinə dəstək üçün ayrılmış 38 milyon dollardan çox yardım da daxildir" – ABŞ səfirliyinin yaydığı məlumatda belə deyilir.

Qeyd edək ki, ABŞ-nin Azərbaycandakı səfiri indiyədək ölkəmizdəki xarici diplomatik korpusun işğaldan azad edilmiş torpaqlara səfər heyətlərində yer almamışdı.

# "ANİMAFİLM festivalı regionlarda"




Mədəniyyət Nazirliyinin dəstəyi və Azərbaycan Animasiya Assosiasiyasının təşkilatçılığı ilə "ANİMAFİLM festivalı regionlarda" layihəsi çərçivəsində növbəti tədbir mayın 16-17-də Lənkəranda təşkil olunacaq.

Assosiasiyadan bildirilib ki, layihə regionlarda animasiya kinosu və sənayesinin inkişafının təşviqi məqsədilə keçirilir.

Lənkəranda yerli və xarici animasiya filmlərinin nümayişləri, müzakirələr nəzərdə tutulub. Həmçinin tədbir çərçivəsində animasiya təlimi keçiriləcək.

Bundan əvvəl layihə çərçivəsində 2021-ci ildə Şəkidə, 2023-cü ildə isə Naxçıvanda tədbirlər keçirilib.

# “Xalçalarda yaşayan tariximiz”

## Yubilyar xalçaçı-rəssamın fərdi sərgisi



*əvvəli səh. 1-də*

Heydər Əliyev Fondunun Humanitar siyasət məsələləri departamentinin rəhbəri Afət Əliyeva, Azərbaycan Milli İncəsənət Muzeyinin direktoru Şirin Məlikova, AMEA Memarlıq və İncəsənət İnstitutunun professoru Kübra Əliyeva, Tahir Salahovun Ev-Muzeyinin direktoru Səadət Mirzəyeva, Əməkdar incəsənət xadimi, professor Ziyadxan Əliyev, “Azərxalça” ASC-nin istehsalat direktoru Əlisəfa Nuriyev, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının professoru, Əməkdar rəssam Məmmədhüseyn Hüseynov çıxış edərək Taryer Bəşirovun yaradıcılıq yolundan danışıblar.

Vurğulanıb ki, Tariyel Bəşirov Azərbaycanda yeganə çətən toxunması üzrə rəssamdır. O, Xalça Muzeyində baş rəssam təyin edildikdən sonra burada çoxsaylı müəllif xalçalarının yaradılmasına öz töhfəsini verib.

Çıxışlarda rəssamın özünəməxsus dəst-xətti ilə daim yeniliklərə imza atdığı bildirilib. Qeyd olunub ki, Lətif Kərimovun davamçısı kimi ornamental və portret xalçalar rəssamın yaradıcılığının əsas yönünü təşkil edir. Çağdaş çətən texnikası ilə toxunan xalçalara bir çox yenilikləri də T.Bəşirov gətirib. O, Xalq rəssamı Tahir Salahovun müəllifi olduğu rəngkarlıq əsəri əsasında toxunan “Üzeyir bəy Hacıbəyli” xalçasının texniki layihəsinin rəhbəri, eləcə də bir sıra digər maraqlı əsərlərin müəllifidir. Bu silsilədən “Kitabi-Dədə Qorqud” dastanına həsr olunmuş “Beşiyim – əbədiyyətim” adlı süjetli çətən, L.Kərimovun 80 illik yubileyinə həsr olunmuş portret çətən, Nizami Gəncəvinin 850 illiyi münasibətilə süjetli portret çətən, Dövlət Akademik Musiqili Teatrında nümayiş olunan, səhnə pərdəsi kimi toxunan 150 kvadratmetrlik “Azərbaycan ulduzları” xalçası, M.Rostropoviçə həsr olunmuş süjetli portret xalça və s. xalça və çətən örnəkləri maraqla qarşılanıb.

Milli Məclisin Mədəniyyət komitəsinin eksperti Əkbər Qoşalı komitənin sədri Fazil Mustafanın yubilyara ünvanladığı təbrik məktubunu təqdim edib, yaradıcılıq uğurları arzulayıb.

Sonra tədbir iştirakçıları T.Bəşirovun “Heydər Əliyev Fondu – 20” xalçasının qədim ənənələrə uyğun hanadan kəsimi mərasiminə qatılıblar.

Qeyd edək ki, mayın 12-dək davam edəcək sərgidə müəllifin ornamental, portret, süjetli xalçaları, xalça eskizləri, eləcə də orijinal tərzdə işlənmiş nəbati və həndəsi naxışlı, süjetli çətənləri nümayiş olunur. Sənət əsərləri Milli Xalça Muzeyi, Tahir Salahovun, Leopold və Mstislav Rostropoviçlərin ev-muzeyləri və T.Bəşirovun şəxsi kolleksiyasındandır.



Xalçaçı-rəssam əsərlərində xalqımızın dünya mədəniyyəti xəzinəsinə bəxş etdiyi inciləri, milli irsimizi, dövlətçilik tariximizi əks etdirməyə üstünlük verib. Buna bariz nümunə kimi Azərbaycanın 44 günlük Vətən müharibəsindəki Qələbəsinə həsr etdiyi “Zəfər”, “Tarixin salnaməsi” kimi xalçaları göstərmək olar. Rəssamın son illərdə ərsəyə gələn “Türkün inancı, xalqın qazancı”, “Beşiyim – əbədiyyətim”, “Müqəddəs üçlük” xalçaları qədim türk mədəniyyətindən, inanclarından bəhrələnərək yaradılıb. Orijinallığı ilə diqqətçəkən “Bəhram Gur və Dürsəti” xalçası isə dahi Azərbaycan şairi və mütəfəkkiri N.Gəncəvinin “Yeddi gözəl” poemasına həsr olunub. Müəllif 1986-cı ildə müəllimi, görkəmli alim, Xalq rəssamı Lətif Kərimovun 80 illiyi münasibətilə yaratdığı “XX əsrin korifeyi” adlı çətəndə ilk dəfə nəbati naxışlar tətbiq edib. O həm də çətəndə ilk dəfə qızılı saplardan istifadə edən sənətkardır.

***

Mayın 5-də Milli Xalça Muzeyində Taryer Bəşirovun 65 illik yubileyi münasibətilə sərgi çərçivəsində “Xalçalarda yaşayan tariximiz” adlı mühazirə təşkil olunub. Mühazirədə sənətşünaslıq üzrə fəlsəfə doktoru Dürdanə Qədirova sənətkarın yaradıcılıq yolundan, əsərlərindən bəhs edib.

T.Bəşirov müəllifi olduğu xalçalar, onların üzərindəki naxışların daşıdığı mənalardan danışıb.

Mühazirədən sonra “Xalçaçı günü” münasibətilə muzeydə ilk dəfə xovsuz xalça növü olan cecim üzrə ustad dərsi keçirilib. Cecim muzeyin Ənənəvi texnologiya şöbəsi tərəfindən dirçəldilən növbəti xovsuz xalçatoxuma texnikasıdır.

**Lalə Azəri**

# ABİ-nin 90 illiyi ilə bağlı silsilə tədbirlər keçiriləcək

2024-cü ildə Azərbaycan Bəstəkarlar İttifaqının (ABİ) yaranmasının 90 illiyi tamam olur. Yubileylə bağlı silsilə tədbirlərin keçirilməsi nəzərdə tutulur.

Bu qəbildən, eləcə də ABİ-nin cari ildə nəzərdə tutulan digər tədbir və layihələri barədə mayın 3-də qurumun idarə heyətinin iclasında müzakirə aparılıb.

ABİ-nin sədri Xalq artisti Firəngiz Əlizadə ötən müddətdə unudulmaz bəstəkarlar Şəfiqə Axundova və Süleyman Ələsgərovun 100 illik yubileyləri ilə bağlı təşkil olunan tədbirləri, Üzeyir Hacıbəyli Beynəlxalq musiqi festivalları çərçivəsində ittifaqda keçirilən elmi konfransların məruzələri əsasında hazırlanan məqalələr toplusunun nəşri və təqdimatını diqqətə çatdırıb, bəstəkar və musiqişünasların fəaliyyətindən danışıb.

ABİ-nin 90 illiyi ilə bağlı tədbirlərdən bəhs edən Firəngiz Əlizadə 15-20 may tarixlərində “Gənc bəstəkar və musiqişünasların” plenumunun keçiriləcəyini deyib. Bu çərçivədə mayın 15-də ABİ-də gənc bəstəkarların kamera-instrumental əsərlərinin, mayın 16-da gənc musiqişünasların elmi konfransı, mayın 17-də Azərbaycan Dövlət Akademik Filarmoniyasında gənc bəstəkarların simfonik əsərlərinin ifası nəzərdə tutulub.

Yubileylə bağlı növbəti tədbir 15-17 iyun tarixlərində F.Əmirov adına Gəncə Dövlət Filarmoniyasında keçiriləcək səyyar plenum olacaq. Proqrama opera, simfonik, kamera-instrumental əsərlərin ifası, ziyalılarla görüşlər daxildir.

# “Salam” Qazaxıstanda teatrları bir araya gətirib

1-4 may tarixlərində Qazaxıstanın Kokşetau şəhərində ”Salam” II Beynəlxalq Komediya Tamaşaları Teatr Festivalı keçirilib. Şaxmet Xusainov adına Akmola Vilayət Qazax Musiqili və Dram Teatrında təşkil olunan festival Qazaxıstanın Xalq yazıçısı, Dövlət mükafatı laureatı, dramaturq Saken Junusovun 90 illik yubileyinə həsr olunub.




Festival çərçivəsində Qazaxıstan, Azərbaycan və Türkiyə teatrlarının tamaşaları nümayiş olunub. Ölkəmizi festivalda Dövlət Pantomima Teatrı təmsil edib. Xalq artisti Bəxtiyar Xanızadə və Əməkdar artist Bəhruz Əhmədlinin birgə hazırladığı “Son ştrix“ tamaşası “Ən yaxşı pantomima tamaşası” nominasiyasında qalib olub və pul mükafatına layiq görülüb.

Tamaşaları beş nəfərdən ibarət münsiflər heyəti qiymətləndirib. Heyətdə Azərbaycanın TÜRKSOY-dakı nümayəndəsi Elçin Qafarlı və Avrasiya Teatrlar Birliyinin Azərbaycan təmsilçisi, Gəncə Dövlət Dram Teatrının aktyoru Yusif Cəfərov da yer alıblar.

# BXA-da ustad dərsləri

Bakı Xoreoqrafiya Akademiyası (BXA) orta ixtisas təhsili pilləsinin tələbələrinə Rusiya Federasiyasının və Kalmıkiya Respublikasının Əməkdar artisti, rejissor-xoreoqraf Ramil Mehdiyev tərəfindən ustad dərsləri keçilib.



BXA-nın rəhbərliyi və müəllim heyətinin də iştirak etdiyi dərs müddətində tələbələrə rəqslərin ifası zamanı əl və ayaq hərəkətləri, rəqs duruşunun incəlikləri nümayiş etdirilib. Dəzgah qarşısında tələbələr müvafiq rəqs hərəkətlərini icra ediblər.

Eyni zamanda onlara xoreoqrafiya sənətinin sirləri barədə danışılıb, səhnədə icra edilən vacib elementlərlə bağlı tövsiyələr verilib.

Ustad dərsləri BXA-nın müəllim və tələbələri tərəfindən yüksək qiymətləndirilib.

# Səttar Bəhlulzadənin 115 illiyi ilə əlaqədar uşaqlar arasında rəsm sərgisi

Xalq rəssamı Səttar Bəhlulzadənin 115 illiyinə həsr olunan ”Səttar Bəhlulzadə yaradıcılığı uşaqların gözü ilə“ rəsm sərgisi başa çatıb.



Sərgi Səttar Bəhlulzadənin Ev-Muzeyi və 3 nömrəli Uşaq Gənclər İnkişaf Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilib.

Sərgidə mərkəzin “Dekorativ rəsm” dərnəyi üzvlərinin Səttar Bəhlulzadə yaradıcılığına həsr olunmuş mənzərə, natürmort, portret janrında çəkdikləri 13 rəsm işi nümayiş olunub.

Muzeyin direktoru sənətşünaslıq üzrə fəlsəfə doktoru Pərzad Abdinova qonaqları salamlayaraq sərginin görkəmli fırça ustasının 115 illiyi ilə əlaqədar il ərzində keçiriləcək tədbirlər silsiləsindən biri olduğunu qeyd edib, ustad rəssamın yaradıcılığının hər zaman uşaqlar üçün örnək olduğunu vurğulayıb.

Dərnəyin rəhbəri Aytən Bəylərzadə çıxış edərək gənc rəssamların sərgiyə hazırlıq prosesi və iştirakından danışıb.

Tədbirin bədii hissəsində mərkəzin istedadlı uşaqları musiqi nömrələri ilə çıxış edib.

Sərginin yekununda gənc rəssamlar diplomlarla təltif olunublar.

# Ankaradan Bakıya kuklaçı sovqatı




22 aprel – 1 may tarixlərini əhatə edən III Beynəlxalq Hadi Poyrazoğlu Kukla və Qaragöz Festivalı barədə xəbər vermişdik. Türkiyə Mədəniyyət və Turizm Nazirliyi, UNESCO üzrə Türkiyə Milli Komissiyası, TİKA, həmçinin Azərbaycan Mədəniyyət Nazirliyi və Azərbaycan Dövlət Kukla Teatrının da dəstək verdiyi sənət festivalının təşkilində məqsəd milli kukla teatrı və oyunları ənənələrini təbliğ etmək və yeni müştərək layihələrin reallaşmasına zəmin yaratmaq idi.

Ankara və İstanbulda tamaşa nümayişlərindən sonra festival təşkilatçıları və qardaş ölkənin teatr və mədəniyyət xadimləri Bakıya gələrək iki gün sənətsevərlər qarşısında çıxış etdilər.

Festival təşkilatçıları öz təəssüratlarını bizimlə bölüşdülər.

Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin idarə rəisi Sanem Arıkan festival sayəsində ölkəmizin qədim, əsrarəngiz mədəniyyəti, səhnə sənəti ilə yaxından tanış olmaq imkanı qazandığını dedi: “Can Azərbaycana bu gəlişim mənim üçün ayrıca yaddaqalandır. Zatən bu isti, sevgi dolu münasibəti hər zaman hiss etmişəm. Çünki bizi birləşdirən qırılmaz tellər var. Bu gəlişim yeni insanlar, Azərbaycan Dövlət Kukla Teatrı sayəsində zəngin ənənələri olan teatrınızla, səhnə sənətinizlə tanışlıq imkanı yaratdı. Düşünürəm ki, festival, müsabiqə, ustad-dərsləri, qarşılıqlı qastrollarla teatrlarımız arasında əlaqələr dərinləşəcək. Ortaq layihələr və yaradıcı təkliflərin sayı artacaq”.

S.Arıkan Azərbaycan mədəniyyət nazirinin müavini Səadət Yusifova ilə görüşlərində də əməkdaşlıq məsələlərinin müzakirə olunduğunu dedi: “Düşünürəm ki, bu festival yeni təşəbbüslərin başlanğıcı kimi məhsuldarlığı ilə seçiləcək. Fürsətdən istifadə edib bizi səmimi, isti qarşılayan dəyərli bacı və qardaşlarıma sayğımı çatdırıram. İnanıram ki, növbəti səfərimizdə daha əhatəli və maraqlı ideyalarımızı reallaşdıracağıq”.

Festivala maddi-mənəvi dəstəyini əsirgəməyən Hilmi Yaman bildirdi ki, layihə Azərbaycan-Türkiyə mədəni əlaqələrinin inkişafına töhfə olacaq: “Bu gün dünyada dəyərlər sistemi dəyişsə də, mədəniyyət bir bağlayıcı, körpü funksiyasını yerinə yetirir. İnsanların düşüncə fərqliliklərini aradan qaldıran mədəniyyət sayəsində, xüsusən yaradıcılıq istiqaməti kimi teatr vasitəsilə mütəmadi bir araya gəlməklə daha böyük uğurlara imza ata bilərik”.

### Pandemiyadan sonra yaranmış durğunluğa cavab

İki gün ərzində rəngarəng səhnə işləri ilə bakılı teatrsevərlərə xoş anlar bəxş edən festivalın layihə müəllifi, eyni zamanda Türkiyənin məşhur kuklaçısı Hadi Poyrazoğlunun nəvəsi, onun ənənəsini sevə-sevə davam etdirən Şafak Poyrazoğlu da tədbirdən sevgi ilə söz açdı: “Biz bu layihəyə pandemiyadan sonra yaranmış durğunluğa cavab olaraq başladıq. Doğrudur, Türkiyədə bu kimi xeyli festival var. Odur ki, biz fərqliliyə can atdıq. Həm də festivalı Türkiyə miqyasından çıxardıq. İlk səfərimiz qardaş Azərbaycana oldu. Biz bu səfərə sevinə-sevinə gəldik. Çünki bizlər sözdə deyil, əməldə də bir millət, iki dövlətik. Burada olduğum müddətdə bunu əyani şəkildə bir daha gördük. İnşallah, növbəti ildə bu layihəni başqa bir türk respublikasında davam etdirəcəyik”.

Müsahibimlə özünü kukla sənətində tapan, Mustafa Kamal Atatürkün və digər dövlət başçılarının qarısında çıxış edərək kukla sənətinə özünəməxsus meydan verməyə, onu diqqət mərkəzinə gətirməklə unudulmağa qoymayan babası Hadi Poyrazoğlunu da xatırladıq: “Babam hələ uşaqlıqdan bu sənətə maraq göstərib. Bizim məşhur Hacıvat və Qaragözlə yanaşı, əlcək kuklalar, balaca, texniki baxımdan elə də mükəmməl, əlverişli olmayan personajlar vasitəsilə də Türkiyədə uşaqdan-böyüyə hər kəsə kukla sənətini sevdirməyə çalışıb. O bu işin ustası kimi xeyli sayda insana bu sənəti öyrədib və onların əksəriyyəti Qaragöz ustası kimi bu ənənəni davam etdirirlər. Babam zaman-zaman müxtəlif kuklalar və tamaşalar qursa da, onun ən sevimli qəhrəmanı İbişdir. Yaşı 100-ü adlayan, babamdan mənə miras qalan o kukla daim böyük maraq yaradır. Bilirsiniz ki, Hacıvat və Qaragöz bizim qeyri-maddi mədəni irsimiz kimi artıq UNESCO-nun da siyahısındadır. Biz kukla sənətçiləri daim bu qədim teatr ənənəsini yaşatmaqla yetişən nəsillərə sevdirməliyik. Doğrudur, dövlətimiz, bu sahəyə bağlı insanlar, yaşlı nəsil buna imkan vermir. Amma bütün hallarda biz həmişə bunun deyirik ki, Hacıvatla Qaragözü yalnız ramazanlarda yada salmayaq, onu uşaqlarımıza, gənclərimizə sevdirmək üçün daim göz önündə saxlayaq. Biz sənətçilər əlimizdən gələni etməklə bu irsimizə sahib çıxmağa çalışırıq”.

Bildiyiniz kimi, məşhur Hacıvat və Qaragözün – iki əzəli və əbədi sevimli düşmənin macəralarını bəyaz pərdə arxasından izləyirik. Ona görə də Türkiyədə buna “xəyal oyunu”, oyunçusuna isə “xəyalpərəst” deyirlər. Əslində, Hacıvatla Qaragöz çox cəsarətli, hər kəsin deyə bilmədiyi həqiqətləri o xəyal oyunu arxasından deyə bilən görünməz qəhrəmanlardır.



### Təqlid və söhbətə əsaslanan kölgə oyunu

Daha bir həmsöhbətim, kuklaçı aktyor, Türkiyədə sevilən Qaragöz ustası Bahadır Bıyıklı da çox cəsarətlidir.

Bizimlə söhbətinə ilk olaraq iki personajın əsrlərdir gəldiyi yolla nəzər saldı: “Hacıvat və Qaragöz ikiölçülü təsvirlərlə ekranda nümayiş etdirilən təqlid və söhbətə əsaslanan kölgə oyunudur. Dəridən hazırlanan və təbii boyalardan istifadə olunan qəhrəmanlar xəyalpərəst, geniş dünyagörüşlü, cəsarətli və mübarizdirlər. Bu iki qəhrəmanın, həqiqətən, yaşayıb-yaşamadığı, yaşayıblarsa, harada və necə yaşadıqları tam məlum deyil. Bununla bağlı bölgələrimizdə fərqli rəvayətlər var. Ən yayğın rəvayətə görə, Hacı İvaz Ağa və ya xalq arasında tanınan adı ilə Hacıvat və Trakyanın Samakol kəndindən olan dəmirçi Qaragöz Orxan Qazi dövründə Bursada yaşayıb məscid tikintisində çalışmış iki fəhlədir. Bütün günü deyib-gülən bu ikili nəinki işləmir, hətta digər işçilərə də mane olurlar. Nəticədə tikinti də yubanır. Bundan qəzəblənən Orxan Qazi deyir ki, məscid vaxtında bitməsə, sizi edam etdirəcəyəm... Nəhayət, hər ikisi edam olunur. Hacıvat və Qaragözü çox sevən və ölümlərinə çox üzülən Şeyx Küsteri onların kuklalarını düzəltməyə və pərdə arxasında oynatmağa başlayır. Beləcə, tragik bitən zarafat sonradan belə bir teatr qoluna çevrilir.

Bahadır bəy uşaq yaşlarında bu rəvayəti eşidəndə çox sarsıldığını, onun təsirindən bu sənəti öyrənməyə başladığını deyir: “20 ildən artıqdır ki, bu sənəti sevərək təbliğ edirəm. Doğrudur, zaman-zaman biz bu sənəti yaşatmaq üçün çətinliklər çəkirik. Amma alıcısı, yəni tamaşaçısı həmişə var. Gərək sənəti doğru icra edəsən. Belə olduqda tələbat da daim olacaq. Çünki onun hər oyununun bir hekayəsi, ana ideyası və məramı var. Öyrətməklə əyləndirmək mümkündür. Sözsüz ki, bizlər təməl ünsürlərini pozmadan onu hər cür hekayənin qəhrəmanı edə bilərik. Çünki indi zaman dəyişib, uşaqların dünyagörüşü, vizual tələbləri çox-çox irəli gedib. Belə olduqda biz də sintez dediyimiz üsulla tamaşaçılarımıza xitab etməyə çalışırıq və şükürlər olsun ki, hər zaman da müsbət qarşılanır”.

İki gün boyunca səhnəyə Hacıvat və Qaragözlə bərabər müxtəlif kuklaları çıxaran, uşaqları Türkiyənin teatr sənəti, milli musiqisi ilə tanış etməyə çalışan festival və onun sayəsində Bakıya gələn sənətçilər bir mətləb hasil etdilər: ənənəvi sənət bütün zamanlarda müasir və maraqlıdır.

**Həmidə Nizamiqızı**

# "Solmaz bir bahar kimi"

## Cabbarlı haqqında film bərpadan sonra nümayiş olundu

Mayın 2-də Dövlət Film Fondunda Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikası Kino Agentliyinin birgə təşkilatçılığı ilə böyük dramaturq, yazıçı, teatr və kino xadimi Cəfər Cabbarlının (1899 –1934) 125 illik yubileyi münasibətilə tədbir keçirildi.

Film Fondunun foyesində sənətkarın həyat və yaradıcılığını əks etdirən fotosərgi təşkil edilmişdi.

Tədbiri giriş sözü ilə Azərbaycan Dövlət Film Fondunun direktoru Əməkdar incəsənət xadimi Cəmil Quliyev açaraq milli kinematoqrafiyamızın inkişafında C.Cabbarlının əvəzsiz xidmətlərindən danışdı.

Qeyd etdi ki, 1979-cu ildə Cabbarlının 80 illik yubileyinə həsr edilən "Azərbaycanfilm" kinostudiyasında "Solmaz bir bahar kimi" filmi çəkilib. Filmin ssenari müəllifi Seyfəddin Dağlı, quruluşçu rejissoru isə Cahangir Zeynallı olub: "Filmi böyük dramaturqun 125 illik yubileyi ərəfəsində bərpa etdik. Film çox qiymətlidir. Ekran işində görkəmli diktorumuz Aydın Qaradağlının səsi eşidilir. C.Cabbarlı Moskvada yazıçı Maksim Qorki ilə qurultay iştirakçıları arasında görünür. Bu görüşü əks etdirən xronikal lentdən ilk dəfədir ki, kinoda istifadə olunur. C.Cabbarlı görkəmli kino xadimi Vsevolod Pudovkinlə söhbət edir. Bu epizod vaxtilə "Sevil" bədii filminin çəkilişi vaxtı lentə alınıb. Ekran əsərində "1905-ci ildə", "Od gəlini" pyeslərindən, "Sevil" tamaşasından parçalar, "Sevil" və "Almaz" filmlərindən fraqmentlər var. Filmdə Sevil və Almaz rollarının ifaçısı akademik İzzət Orucova, yazıçı Mirzə İbrahimov, aktyor Ağasadıq Gəraybəyli və başqaları C.Cabbarlı haqqında söhbət açırlar".



Yüksək sənətkarlıqla çəkilən film Azərbaycan Komsomolu mükafatına, kinorejissor Cahangir Zeynallı isə Cəfər Cabbarlı mükafatına layiq görülüb.

Ədibin irsinin araşdırıcısı, professor Asif Rüstəmli çıxış edərək C.Cabbarlının həyat və yaradıcılığının yer aldığı "Solmaz bir bahar kimi" sənədli filmi haqqında danışdı. Bildirdi ki, sovet dövründə Cabbarlı ilə bağlı bir-birindən maraqlı üç film lentə alınıb. Adıçəkilən bu film isə çox sənətkarlıqla yaradılıb. Film görkəmli ədibin həyat və yaradıcılığını özündə əks etdirən dəyərli sənət əsəridir.

Əməkdar incəsənət xadimləri - kino tədqiqatçısı Aydın Kazımzadə, kinorejissor Cahangir Zeynallı, Əməkdar müəllim Nəcməddin Mürvətov görkəmli ədibin Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərini qeyd etdilər.

Sənətkarın nəvəsi Qəmər Seyfəddinqızı çıxış edərək tədbirin təşkilatçılarına, iştirakçılarına, sənədli filmin bərpasına görə Dövlət Film Fondunun rəhbərliyinə və kollektivinə təşəkkür etdi.

Çıxışlardan sonra "Solmaz bir bahar kimi" filmi nümayiş olundu.

**S.Fərəcov**

---

**Əjdər İbrahimov – 105**

# 13 yaşında səhnəyə çıxan dünyaşöhrətli kinorejissor

Əjdər İbrahimovun adı çəkiləndə təkcə Azərbaycanda deyil, bir sıra yaxın-uzaq ölkələrdə kino sənəti yada düşür. Kino təşkilatçısı kimi də tanınan, Azərbaycanın və SSRİ-nin Xalq artisti olan sənətkar diqqətəlayiq ekran əsərləri ilə tamaşaçıların rəğbətini qazanıb. Görkəmli rejissoru anadan olmasının 105 illiyi münasibətilə anırıq.

Əjdər Mütəllim oğlu İbrahimov 19 aprel 1919-cu ildə Aşqabadda dünyaya göz açıb. Ancaq o, əslən təbrizlidir. Valideynləri ötən əsrin əvvəllərində Türkmənistana köçmüşdü.



Uşaqlıqdan öz böyüklərindən ədəbiyyat və folklor nümunələrimizi eşidən Əjdər eyni zamanda muğamlarımızı da həvəslə dinləyir və milli-mənəvi dəyərlərimizin əhatəsində boya-başa çatır.

Teatra qəlbən bağlanan Əjdər 13 yaşında səhnədə ilk rolunu oynayır. Sonra Aşqabad Teatr Məktəbinə daxil olur. 1940-cı ildə təhsilini başa vurur. Teatr təhsili alsa da, kinoya daha çox maraq göstərir. Bu həvəslə də Moskvada Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun Rejissorluq fakültəsinə daxil olur. 1952-ci ildə təhsilini tamamlayır və təyinatla Aşqabad kinostudiyasında işə başlayır. "Türkmənfilm" onun yaradıcılıq həyatında müəyyən rol oynayır. Ona yalnız sənədli filmlər çəkməyə icazə verilir. O, ilk yaradıcılıq fəaliyyəti kimi "Füruzə", "Xəzərin şərqində" və s. filmlərə quruluş verir.

Əjdər İbrahimov Aşqabadda gələcək işlərinin çətin olacağını düşünür. Buna görə də Bakıya can atır. 1954-cü ildə Azərbaycana gələn rejissor həmin il tanınmış kinorejissorlar Lətif Səfərovun quruluş verdiyi "Mahnı belə yaranır" və Tofiq Tağızadənin 1955-ci ildə çəkdiyi "Görüş" filmlərində ikinci rejissor kimi çalışır.

Bakı kinostudiyasında quruluşçu rejissor olaraq ilk böyük işini 1957-ci ildə reallaşdırır. "Mosfilm"in iştirakı ilə ekranlaşdırılan "Bir məhəllədən iki nəfər" filminə İlya Qurinlə birlikdə quruluş verir. Bir il sonra yazıçı İmran Qasımovun ssenarisi əsasında "Onun böyük ürəyi" filmini çəkir. Film yeni salınan Sumqayıt şəhərindəki quruculuq işlərindən bəhs edir. Süjetdə İkinci Dünya müharibəsi, ondan əvvəlki və sonrakı dövrlərə də yer verilir. Burada rejissor özü də Rəsulov rolunda çəkilir. Filmə tamaşa edən Vyetnam mədəniyyət xadimləri Sovet İttifaqının müvafiq qurumlarına müraciət edərək rejissorun bu ölkədə kinematoqrafiyanın formalaşmasına yardım etməsini istəyirlər. Beləliklə, Əjdər İbrahimov Vyetnam incəsənətində yeni səhifələr açmağa başlayır. Hanoyda açılan kino məktəbinə minlərlə vyetnamlı ərizə verir.

Qeyd edək ki, o zaman Vyetnamda kino sənəti təzəcə yaranırdı və hələlik sənədli film çəkilirdi. Ölkə kinoteatrlarında isə ancaq yapon və fransız filmləri göstərilirdi. Əjdər İbrahimov Hanoya gələndən sonra Vyetnamın öz kinosu yaradılır.

Əjdər İbrahimov Vyetnamın əksər rayonlarını, ucqar yaşayış məntəqələrini gəzir. Xalqın adət-ənənələrini və milli-mənəvi dəyərlərini öyrənir. Həmçinin kino məktəbi üçün uşaqlar toplayır. Bu məktəbə minlərlə gənc müraciət edir. Təhsildən sonra onların hamısına – Vyetnamın ilk peşəkar kinoaktyor və rejissorlarına diplomlar verilir. Beləliklə, Əjdər İbrahimov 1959–1962-ci illərdə Vyetnamda ilk milli kino məktəbinin yaradılması, milli aktyor və rejissor kadrlarının hazırlanmasında yaxından iştirak edir. Onun bədii rəhbərliyi ilə "İki əsgər", "Acgöz quş" və "Bir payız günündə" filmləri lentə alınır.





Bakıya qayıtdıqdan sonra rejissor "İyirmialtılar" filmini (1965) ekranlaşdırır. Yazıçı İsa Hüseynovun ssenarisi əsasında çəkdiyi film Leninqradda keçirilən Ümumittifaq festivalında (1968) mükafata layiq görülür. Az sonra Əjdər İbrahimov həmin filmin davamı kimi "Ulduzlar sönmür" (1971) tarixi ekran əsərini çəkir. Film görkəmli yazıçı-dramaturq və dövlət xadimi Nəriman Nərimanovun həyat və fəaliyyətindən bəhs edir.

Əjdər İbrahimov sonralar "Mosfilm"də rejissor kimi fəaliyyətini davam etdirir. Onun "Ürək əhvalatları", "Məhəbbətim mənim, kədərim mənim" (Nazim Hikmətin "Fərhad və Şirin" pyesi əsasında, SSRİ-Türkiyə birgə filmi, 1978) filmləri rejissora geniş şöhrət gətirir.

Sənətkarın kino sahəsində fəaliyyəti yüksək qiymətləndirilib. O, 1960-cı ildə Azərbaycanın "Əməkdar incəsənət xadimi", 1967-ci ildə "Xalq artisti" fəxri adlarına, eyni zamanda keçmiş ittifaqın bir sıra orden və medallarına layiq görülür. İttifaqın dağıldığı ərəfədə – 28 noyabr 1991-ci ildə ona "SSRİ Xalq artisti" fəxri adı verilir.

Görkəmli rejissor eyni zamanda Vyetnam səfərində gördüklərini qələmə alıb. İşıq üzü görən "Vyetnamda gördüklərim", "Günəş ağlayır", "Döyüşən Vyetnamın kino sənəti", "Tai qəbiləsindən olan qız" adlı kitabları oxucular tərəfindən maraqla qarşılanıb.

Əjdər İbrahimov 20 sentyabr 1993-cü ildə Moskvada vəfat edib. Xatirəsi kinosevərlərin qəlbində əbədi yaşayan sənətkar Bakıda Fəxri xiyabanda dəfn olunub.

**Savalan**

---

# ADU-da Yaradıcılıq Fondunun "Ədəbiyyat adamı" mükafatı təqdim edilib



Azərbaycan Dillər Universitetində (ADU) Yaradıcılıq Fondunun dəstəyi ilə təşkil edilən "Ədəbiyyat adamı" müsabiqəsinin mükafatlandırma və Yaradıcılıq fakültəsinin məzunlarına diplomların verilməsi mərasimi keçirilib.

Mərasimdə çıxış edən fondun rəhbəri, ADU-nun rektoru Xalq yazıçısı, akademik Kamal Abdulla deyib: "May ayı Ulu öndər Heydər Əliyevin doğum günü ilə əlamətdardır. Biz də fondumuz adından qərara gəldik ki, bu münasibətlə ədəbiyyatçılarımız, ziyalılarımız üçün bir mükafat təsis edək və onu hər ilin may ayında təqdim edək. Mükafatı beşinci ildir ki, təqdim edirik. Bəs niyə ədəbiyyat adamı? Fikrimcə, bu çox iddiasız, mütəvazi addır. Bizim aləmimizdə ədəbiyyat adamı sakitcə ədəbi fəaliyyətlə məşğul olan, zəhmətkeşliyi, peşəkarlığı əsas prinsip seçən, ədəbiyyatı həyat kimi, həyat tərzi kimi yaşayan, ədəbiyyatın dostu olan şəxsdir. Biz bu gün Yaradıcılıq fakültəsinin dinləyicilərini də uğurlayırıq. İnanıram ki, aldıqları təhsilin izlərini, rayihəsini onların gələcək yaradıcılıqlarında hiss edəcəyik. İnanıram ki, onlar həmişə ədəbiyyatın yanında, mətnin yanında olacaqlar...".

Sonra "Ədəbiyyat adamı" mükafatına layiq görülənlər – Ramiz Rövşən, Həmid Herisçi, Aydın Talıbzadə, Rüstəm Behrudi, Azər Turan, Etimad Başkeçid, Aqşin Yenisey, Nərgiz Cabbarlı, Varis, Ulucay Akif təltif olunublar.

Qaliblər mükafata layiq görüldükləri üçün təşəkkür ediblər.

---

# Muzeydə Osman Hacıbəyovun 100 illiyinə həsr olunmuş tədbir

Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində Əməkdar artist Osman Hacıbəyovun (1924–1979) 100 illiyinə həsr olunmuş tədbir keçirilib.



Tədbiri muzeyin direktoru Əməkdar mədəniyyət işçisi Alla Bayramova açaraq Hacıbəyovlar nəslinin layiqli nümayəndəsi olan aktyorun incəsənət tariximizdə özünəməxsus yeri olduğunu deyib.

Muzeyin şöbə müdiri Xanım Abdinova Osman Hacıbəyovun yaradıcılıq yolu haqqında danışıb. Qeyd edib ki, O.Hacıbəyov otuz ildən artıq Dövlət Gənc Tamaşaçılar Teatrında aktyor kimi fəaliyyət göstərib. O, teatrda Ayaz ("Ana"; A.Şaiq), Əşrəf və Qıdı kirvə ("Hacı Qəmbər"; N.Vəzirov), Yaşar ("Yaşar"; C.Cabbarlı), Tarverdi ("Xırs-quldurbasan"; M.F. Axundzadə), Protey ("İki veronalı"; V.Şekspir), İmran, Nəsrəddin ("Anacan" və "Nəsrəddin"; Y.Əzimzadə), Bəxtiyar ("Komsomol poeması"; İ.Coşqun) və başqa rollar oynayıb.

Tədbirdə Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru, Xalq artisti Ülviyyə Hacıbəyova və tələbələrinin ifasında konsert proqramı təqdim olunub.

Sənətkarın iştirak etdiyi tamaşalardan ibarət videofraqmentlər nümayiş olunub.

Qeyd edək ki, Osman Hacıbəyov dahi bəstəkar Üzeyir Hacıbəylinin əmisi nəvəsidir. Üzeyir bəyin əmisi İsmayıl Hacıbəyovun (1879–1921) digər oğlu görkəmli bəstəkar, pedaqoq Soltan Hacıbəyovdur (1919–1974).

---

# "Əzim Əzimzadə" kitab-albomunun təqdimatı

Bakı Kitab Mərkəzində Əməkdar incəsənət xadimi, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının professoru Çingiz Fərzəliyevin "Əzim Əzimzadə" kitab-albomunun təqdimatı keçirilib.

Mərkəzin direktoru Günel Rzayeva təqdimata toplaşanları salamlayaraq kitabın nəşrində əməyi olan hər kəsə təşəkkürünü bildirib.

Bakı İncəsənət Mərkəzinin direktoru Rafael Gülməmmədlinin aparıcılığı ilə keçirilən tədbirdə Xalq yazıçısı Anar, Xalq rəssamları Ömər Eldarov və Fərhad Xəlilov, AMEA Memarlıq və İncəsənət İnstitutunun direktoru Ərtegin Salamzadə, Özbəkistan Milli İncəsənət Qalereyasının direktoru Kamola Akilova, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru Rafael Hüseynov, Azərbaycan Milli İncəsənət Muzeyinin direktoru Şirin Məlikova və başqaları çıxış ediblər. Çıxışlarda Əzim Əzimzadənin təsviri sənətimizin inkişafında böyük rolundan söz açılıb.

Tədbir Xalq artisti Siyavuş Kərimi, Əməkdar artistləri Anar Şuşalı və Emil Əfrasiyabın ifaları ilə yekunlaşıb.




Qeyd edək ki, Azərbaycan Milli İncəsənət Muzeyi tərəfindən nəşr olunmuş "Əzim Əzimzadə" kitab-albomu rəssamın həyatını, dövri mətbuatdakı fəaliyyətini, teatr sahəsindəki nailiyyətlərini, xeyli sayda nəşr olunmamış əsərlərini əhatə edir.

---

**Pressfakt**

# İllər öncə qəzetlər nədən yazırdı?

## Milli Kitabxananın dövri mətbuat arxivindən (14)

Mətbuat xronikasından budəfəki seçmələr 88 il öncəyə aiddir. 1936-cı il... Məşum repressiya dalğası mədəniyyət və sənət aləminin üstünü hələ almayıb. Amma havası hiss olunur. Bununla belə, mədəni həyat davam edir, yeni quruluşun ədəbiyyat və incəsənət əsərlərində tərənnümü vüsət alır...

Seçmələr "Ədəbiyyat" qəzetinin bir sayından götürülüb. Dövrün orfoqrafiyası saxlanılıb.

### Kürdəmirdə ədəbi gecə

Bu aprel ayının 8-də Kürdəmir rayonu mərkəzindəki klubda rayonun adlı-sanlı kalxozçuları və dəmiryolçuları üçün böyük ədəbi gecə təşkil edilmişdi.

Gecədə şair Ə.Fevzi iştirak etmişdir. Gecəyə toplaşanlara Azərbaycan ədəbiyyatı haqqında məlumat veriləndən sonra 9 nəfər çıxışda bulunmuş. Gecədə Səməd Vurğunun "Stalinə salam", "Qafqaz", S.Rüstəmin "Sarayev", "Ulduzlar", Müşfiqin "Stalin", M.Rahimin "Ölməz qəhrəman", Fevzinin "Qaçay", "Alışan ölkələr" adlı şeirləri və Aşıq Ələsgərin bir sıra qoşmaları oxunmuş.

Ədəbi gecə Kürdəmir rayonunda əməkçi kütlənin ədəbiyyat bayramı şənliyinə çevrilmiş.

### Gənc tamaşaçılar teatrosunda

Gənc tamaşaçılar teatrosu türk sektorunun məktəb cocuqlarına məşhur fransız ədibi Jül Vernin yaradıcılığı ilə tanış etmək məqsədilə onun "Kaptan Qrantın uşaqları" adlı romanı üzrə düzəlmiş pyesi göstərməsi gözəl bir təşəbbüs kimi alqışlanmalıdır.

İki hissəyə bölünmüş bu pyes aprelin 6 və 8-də tamaşaya qoyuldu. Bu tamaşa bu il içərisində gənc tamaşaçılar teatrosunun ikinci premyeridir. Teatronun birinci premyeri Seyidzadə yoldaşın "Nərgiz" əsəri üzrə tərtib olunmuş pyesi olmuşdur.

Teatronun bu mevsimde yanlız iki premyer qoyması heç də kafi deyildir. Birinci və ikinci premyer arasında uzun bir fasilə buraxılması teatro müdriyyətinin fəaliyyətində böyük bir nöqsandır. Gələcəkdə bunun təkrar olunmaması üçün müdriyyət və bütün teatro kollektivi təşəbbüs göstərməlidirlər. Bunun üçün teatronun imkanı vardır.

Yazıçılarımız da, xüsusilə cocuq ədəbiyyatı və dramaturgiya sahəsində çalışan yazıçılarımız gənc tamaşaçılar teatrosunun repertuarını zənginləşdirmək məsələsini unutmamalı və cocuq səhnəsi üçün yeni və orijinal əsərlər yaratmağa çalışmalıdırlar. Bu vaxta qədər yazıçılarla gənc tamaşaçı teatrosu arasında sıx əlaqənin olmaması hər iki tərəfin təqsiridir. Bu əlaqəni tezliklə yaratmaq lazımdır.

### "Almaz" filmi qutardı

Rejissor A.R.Quliyev və Braginskinin çəkməkdə olduğu "Almaz" kino filmi çəkilib qutarmışdır.




Şəkilin əsas montaj işləri qutarmış, aprelin 7-də SSÇI kino sənayesi baş idarəsi nümayəndəsi filmə baxmışdır. Film bu günlərdə tamamilə hazır olacaq və baxılmaq üçün Moskvaya göndəriləcəkdir.

*"Ədəbiyyat" qəzeti, 1 may 1936-cı il*

# Opera adlı musiqi bayramı

27 aprel – 3 may tarixlərində Xalq artisti, tanınmış vokalçı Fidan Hacıyevanın təşəbbüsü ilə keçirilən Opera festivalı bütün gözəl hadisələr kimi tarixi labüdlükdən doğmuşdu – Şərqdə ilk operanın vətənində belə festival nə vaxtsa baş tutmalı idi...

### Opera sənət növü kimi

Musiqili teatr janrı (musiqi, səhnə hərəkəti və sözün sintezi) olan bu sənət növünün adı italyanca iş, zəhmət, latınca əsərlər mənalarını özündə ehtiva edir. Operanın ədəbi zəmini isə orijinal və ya ədəbi əsər əsasında yazılmış librettodur.

Operanın ən ilkin nümunələri qədim yunan faciələri hesab olunur – Esxil, Sofokl və Evripid şair olmaqla yanaşı həm də musiqiçi idilər. Təəssüf ki, İntibah dövrü tədqiqatçılarına onların əsərlərinin yalnız mətnləri gəlib çatıb. İstisna olaraq Evripidin "Orest" və "İfigeniya və Avlide" faciələrinə aid musiqili müşayiətin kiçik nümunələrini qeyd etmək olar. XVIII–XIX əsrlərdə opera təşəkkül pilləsini qalxdıqca müxtəlif teatr və musiqi janrlarının inkişafına öz təsirini göstərib, opera uvertürasından simfoniya meydana gəlib.

### Opera festivalları

Opera tamaşaları silsiləsini vahid ad, mövzu və proqram altında təşkil etmək ənənəsi XIX əsrin ikinci yarısında formalaşıb. Ən qocaman opera festivalı 1876-cı ildən bəri Almaniyada keçirilən Bayret festivalı sayılır. Opera festivalları tarixini yazan musiqi bayramları arasında 1913-cü ildən İtaliyada açıq havada keçirilən "Arena di Verona", 1921-ci ildən bəri Avstriyanın Zalsburq şəhərində təşkil edilən opera festivalı, 1933-cü ildən keçirilən "Florensiya musiqi mayı", 1934-cü ildən bəri İngiltərədə baş tutan Qlayndborn festivalı kimi tədbirlər var.

### Fidan Hacıyevanın Opera festivalının açılışı

Xalq artisti Fidan Hacıyevanın Vokal musiqi məktəbinin təşəbbüsü və təşkilatçılığı, Mədəniyyət Nazirliyi və Akademik Opera və Balet Teatrının dəstəyi ilə keçirilən "Fidan Hacıyevanın Birinci Opera Festivalı" Bakı Musiqi Akademiyasının Opera studiyasının səhnəsində Jorj Bizenin "Karmen"i ilə açıldı.

İstedadlı opera müğənnisi Fidan Hacıyevanın yaradıcılığının "qırmızı xətti"nə çevrilmiş obrazın budəfəki səhnə həyatı yeni qurulışda idi. Aktyor və rejissor Elvin Mirzəyevin quruluşunda "Norma" operasını görənlər "Karmen"in zəif yozum olduğunun fərqinə varmaya bilməzlər. Opera əsərinin təsir gücünün yeni səhnə versiyasında tamaşaçıya hakim kəsilməməsi kütləvi səhnələrdə daha çox nəzərə çarpırdı. Ümumilikdə isə festivalı açan "Karmen" opera səhnəmizin çoxdankı dostu, almaniyalı dirijor Korneliya fon Kerssenbrokun həmişəki kimi özünəməxsus yanaşma və təqdimatında, başda Karmen partiyasının ifaçısı Fidan Hacıyeva olmaqla opera artistlərinin vokal imkanlarının, aktyorluq bacarıqlarının səviyyəsi ilə zövqoxşayan idi. Xoze (Fərid Əliyev) – Mikaela (İnarə Babayeva), Xoze – Karmen, Karmen – Eskamilio (Anton Ferştandt) xətlərinin hər biri ayrıca səhnə əsəri səviyyəsində idi. Lakin, qeyd edək ki, səhnədə bir tamlıq, bütövlük, vəhdət axtarışı çatmırdı...



### Festivala gətirən yol

Fidan Hacıyeva ilə ilk müsahibəm illər əvvəl Karmen partiyasındakı debütündən sonra olmuşdu. Gənc xanım vokalçının ifaçılıq, artistik potensialı, şübhəsiz ki, elə o zaman diqqət çəkirdi. Bu onun 19 yaşında solist kimi fəaliyyətə başladığı Opera və Balet Teatrının səhnəsində ikinci obrazı idi, birinci Üzeyir Hacıbəylinin "Koroğlu" operasında Xanəndə qız partiyası olmuşdu. Karmen və Fidan Hacıyevadan danışanda obrazın öz ifaçısını tapdığı yozumu tam yerindədir; öz təbiri ilə desək, "mən Karmeni oynamıram, Karmen mən özüməm". Təcrübə qazandıqca fitri istedada təşkilatçılıq qabiliyyətinin də əlavə edilməsi gözlənilən idi. Sənətçi 2015-ci ildə özünün vokal musiqi məktəbini, 2019-cu ildə xanımlardan ibarət "Mezzo" musiqi kollektivini yaratdı. Bu il isə çoxdan düşündüyü Opera festivalını reallaşdıra bildi.

### Festival günləri

Bu günlərdə M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında "Gənc opera ulduzları", Fidan Hacıyevanın Vokal musiqi məktəbində "Mezzo-soprano", R.Behbudov adına Dövlət Mahnı Teatrında "Gələcəyin ulduzları", Beynəlxalq Muğam Mərkəzində "Sənət varisləri" adlı konsertlər, F.Əmirov adına Gəncə Dövlət Filarmoniyasında Azərbaycan və dünya bəstəkarlarının əsərlərindən ibarət proqram, "Landmark"da klassik musiqi axşamı oldu.



Fidan Hacıyevanın Vokal musiqi məktəbinin səkkiz ildə nəyə nail olduğunu müşahidə etmək maraqlı idi. Vokal məktəbinin yetirmələrindən Şəms Qəhrəmanovanın ifasında C.Verdinin "Riqoletto" operasından Cildanın ariyası, Günel Əsədovanın ifasında Ş.Əmirovun "Sevil" operasından Gülüşün ariozosu xüsusilə yaddaqalan oldu. Gənc vokalçı xanımların səhnə mədəniyyətinin, qədərində sərbəstliyin, ariyanı texniki cəhətdən dəqiq ifa etməklə kifayətlənməyib obraza varmaq və beləliklə, tamaşaçıya əsəri, personajı duyub-dərk etmək imkanı yaratmaq bacarığı opera sənətimizin parlaq gələcəyinə möhkəm inam doğurdu. Filarmoniyanın kamera orkestrinin müşayiəti və Cavanşir Cəfərovun dirijorluğu ilə keçən konsert əsrarəngiz təəssürat yaratdı.

Konsertlərdə həmçinin Ramil Qasımovun "Bülbül Vokal məktəbi"nin, Aybəniz Haşımovanın "Sənət akademiyası"nın, Milli Konservatoriyanın nəzdindəki İncəsənət Gimnaziyasının, Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin, G.Şaroyev adına 35 saylı Musiqi məktəbinin yetirmələri Azərbaycan və dünya bəstəkarlarının opera əsərlərindən müxtəlif partiyaları ifa etdilər. Bütün bu opera səltənətimizi Rusiyadan dəvət edilmiş vokalçı Vyaçeslav Vasilyev, operanın vətəni İtaliyadan dəvət edilmiş vokalçı Ripalta Bufo, Gürcüstandan dəvət edilmiş vokalçı Qriqori Çelidze kimi opera ustalarının da görməsi çox qürurverici idi.

Festivalın filarmoniyada keçirilən "Viva Opera" adlı bağlanış konsertində Opera və Balet Teatrının simfonik orkestrini türkiyəli dirijor Murad Cem Orxan idarə etdi. Proqramda C.Verdinin "Nabukko" operasından Uvertüra, orkestrin müşayiəti ilə isə J.Bizenin "Karmen", "Atilla", C.Verdinin "Trubadur", C.Puççininin "Bohema", V.Bellininin "Norma", M.Maqomayevin "Şah İsmayıl", Ü.Hacıbəylinin "Koroğlu" operalarından ariyalar səsləndi. Vokalçılar Fidan Hacıyeva, Cahangir Qurbanov, Georgi Çelidze, Ripalta Bufo, Anar Şuşalı və Fəridə Məmmədovanın ifaları özünü təsdiq etmiş sənətkarlarının yaradıcılıq axtarışlarını davam etdiyinin daha bir təsdiqi oldu.

***

Festival onu da göstərdi ki, Azərbaycanda klassik vokal sənətinin bünövrəsi dayanıqlı olduğu üçün opera ifaçılığına maraq davamlı, ciddi və ən əsası sevgi xassəlidir. Yeddigünlük festival ərzində bu keyfiyyətləri həm tamaşaçılar, həm də səhnədə ilk addımlarını atan, ariyaları yenicə öyrənən gənclərin nümayiş etdirməsi mübaliğəsiz olaraq sənət bayramı ovqatı yaratdı...

**Samirə Behbudqızı**

# Rəssam Tahir Ələkbərovun sənət dünyası



Uşaqlıqdan rəssam olmağı arzulayan Tahir Ələkbərov 1975-ci ildə Bakının Balaxanı kəndində rəssam Akif Ələkbərovun ailəsində dünyaya göz açıb. Bu yolda ilk addımlarını atası ilə atan Tahir məktəb illərindən Pionerlər evində Xəyyam müəllimin yanında sənətin sirlərini öyrənib. Atasının sənət dostları, onların maraqlı söhbətləri, Xalq rəssamları Tahir Salahov, Toğrul Nərimanbəyov, Mikayıl Abdullayevin kitabları ilə böyüyüb.

1990-cı ildə Əzim Əzimzadə adına Dövlət Rəssamlıq Məktəbinə daxil olub. Burada ilk müəllimi Əməkdar incəsənət xadimi Əyyub Hüseynov, daha sonra Kamil Ramazanov olub. Bağ mövzusunda diplom işində (Kürdəxanı, Ləhiş bağlarının təsviri, quyudan suçəkən oğlan) öz uşaqlıq xatirələrini də canlandırıb.

Tahir Ələkbərov daha sonra təhsilini Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində xalça rəssam ixtisası üzrə davam etdirir. 1998-ci ildə universitetin bakalavr, 2001-ci ildə magistr pillələrini başa vurub. Bakalavr diplom işi namazlıq xalça, magistr diplom işi karvan təsvirli dekor xalça olub.

1995-ci ildə Balaxanı kəndində 4 saylı orta məktəbdə təsviri incəsənət müəllimi kimi pedaqoji fəaliyyətə başlayan Tahir Ələkbərov 2018-ci ildən Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında çalışır. 1998-ci ildən Azərbaycan Rəssamlar İttifaqının üzvüdür.

Əsasən rəngkarlıqla məşğul olan rəssam, eyni zamanda xəttatlıq, xalça sənəti ilə də məşğuldur. Əl işlərini müxtəlif sərgilərdə təqdim edib. "Ghadir International Calligraphy Festival" (Təbriz, İran, 2004), "Capadokia I Internationale Tradisional Art Camp" (Kapadokya, Türkiyə, 2019) sərgilərinin iştirakçısı olub. "International Calligraphy Exhibition" (Bakı, 1996) sərgisində qızıl medal qazanıb. Şərur, Göygöl rayonlarında və Bakı şəhərindəki bir neçə məscidin bədii tərtibatını verib. Son zamanlar əsasən freska – divar rəsmləri üzrə çalışan rəssam italyalı Stefano Lukanın yaradıcılığından bəhrələnib.

Tahir Ələkbərov "Mənim narahatlığım", "Ataşi-eşq", "Səmimiyyət", "Ümid", "Məbəd", "Ləhiş bağları" və s. əsərlərin müəllifidir.

"Məbəd" əsəri COVID-19 pandemiyası dövründə ABŞ-nin Sent-Luis şəhərində festivalda sərgilənib. Əsərdə təsvir olunan məbəd Balaxanı qəbiristanlığında yerləşən kiçik abidədir. Abidənin xəzri küləyinin daim döyəclədiyi tərəfini təsvir edən rəssam əsərin aşağı hissəsindəki divar effektini boya ilə kvars qumunun qarışığından əldə edib. Əslində, içəri hissədəki qəbirdaşı abidənin daxilində deyil. Kompozisiyanı tamamlamaq məqsədilə təsvirdə həmin daşı məbədin interyerinə yerləşdirən rəssam məhz bu məkanı dünyanın mərkəzi kimi görür. Abidənin forması dünyanın dörd cəhətini simvolizə edir. Bu dörd cəhət həm də 4 ünsürə işarədir. Abidənin aşağı hissəsində üç sıra daş var ki, bu da atəşpərəstlikdən irəli gələn – düzgün düşün, düzgün yaşa, düzgün danış prinsipinə uyğundur.



Sent-Luis şəhərindəki sərgidə "Məbəd" əsəri haqqında çox maraqlı rəylər qəbul edən rəssamın ən təsirləndiyi fikir – "sən bədii ifadənin gücü ilə kiçik bir abidəni mücəddəs ocağa çevirmisən" olub.

Tahir Ələkbərovun yaradıcılığında izləyicilərini təəccübləndirərək düşünməyə vadar edən, intuitiv səciyyəyə malik əsərlər də mövcuddur. "Ekzistensiya" əsəri belə örnəklərdən biridir. Əsər, adından da bəlli olduğu kimi, müəllifin mövcudluq fenomenini, yeni varlıq səbəbini kəşf etmə cəhdinin təsviri nümunəsidir. Mərkəzində qadın başı təsvir olunan kompozisiyada istifadə olunan forma və rənglər xüsusi emosional təsir gücünə malikdir. Burada qadın fiqurunun daxili enerjisi ilə dinamikası ön planda çıxış edir. Müəllifin əsər üçün seçdiyi təzadlı və cəsarətli kolorit həll izləyicilərin təxəyyülündə yeni bir kəşf, maraq, estetik zövq yaradır.

Rəssamın akvarel texnikası ilə icra etdiyi rəsm əsərləri maraqlı mövzular ilə yanaşı, xeyli əhatəli olan janr müxtəlifliyi ilə də seçilir. Mənzərə əsərləri içərisində "Ləhiş bağları" realist xüsusiyyətləri ilə diqqət çəkir. Bu evi rəssamın tündvari və açıq rənglərdən ibarət palitrasında özünəməxsus duyumla təsvir olunub. Abşeronun susuz torpaqlarında yetişib, bir növ mübarizə aparan ağaclar, kol-kos sanki ətrafa sirli-soraqlı bir ab-hava, poetik ovqat bəxş edir. Sulu boya texnikasının bəxş etdiyi imkanlardan məharətlə istifadə edən rəssam Tahir Ələkbərov peyzaj əsərində emosional dərinliyi olduqca doğun bir şəkildə təqdim edib.

Gələcəyə nikbin köklənən rəssam daim öz üzərində işləyir, yaradıcılıq axtarışlarını davam etdirir. Bu yolda rəssama uğurlar arzulayırıq.

**Lamiyə Əliyeva**
**Azərbaycan Dövlət Rəsm Qalereyasının əməkdaşı**

## Xatirə təqvimi — 7 – 10 may

### Azərbaycan

**7 may 1926** – Əməkdar rəssam Cəbrayıl Əlimuxtar oğlu Əzimov (1926 – 10.7.1969) Bakıda doğulub. "O olmasın, bu olsun" (Nadir Zeynalovla birgə), "Leyli və Məcnun" , "Qızmar günəş altında", "Qanun naminə" və s. filmlərin quruluşçu rəssamı olub.

**7 may 1954** – Əməkdar incəsənət xadimi Vaqif İsa oğlu Ağayev (1954–2011) Abşeron rayonunda anadan olub. 1972-ci ildən Azərbaycan Televiziyasında çalışıb.

**7 may 1957** – Xalq artisti, teatr rejissoru İranə Tofiq qızı Tağızadə (1957 – 9.4.2023) anadan olub. Akademik Rus Dram Teatrında quruluşçu rejissor işləyib, Akademik Milli Dram Teatrında tamaşalara quruluş verib.

**7 may 1998** – Tanınmış kinorejissor, operator, Xalq artisti Muxtar Baba oğlu Dadaşov (11.9.1913 – 1998) vəfat edib. "Qanun naminə", "Bakıda küləklər əsir" və s. filmlərə quruluş verib. Sənədli və bədii filmlərin ("Yeni horizont", "Arşın mal alan") operatoru olub.

**7 may 2021** – Xalq şairi Musa Səfiməmməd oğlu Yaqub (10.5.1937 – 2021) vəfat edib. "Ürəyimdə yerin qaldı", "Ruhumla söhbət", "Dövrün dəyirmanı" və s. kitabların müəllifidir. Milli Məclisin deputatı (1995–2000) olub.

**7 may 2021** – Xalq artisti, aktyor Arif Əli oğlu Quliyev (16.5.1950 – 2021) vəfat edib. Musiqili Komediya, Milli Dram, İrəvan teatrlarında işləyib. Filmlərdə, televiziya tamaşalarında maraqlı rollar oynayıb.

**8 may 1910** – Tanınmış ədəbiyyatşünas alim, şair, tərcüməçi, professor Cəfər Xəndan (Cəfər Zeynal oğlu Hacıyev; 1910 – 10.8.1961) İrəvan şəhərində anadan olub.

**8 may 1919** – SSRİ Xalq artisti, görkəmli bəstəkar, pedaqoq Soltan İsmayıl oğlu Hacıbəyov (1919 – 19.9.1974) Şuşada doğulub. "Gülşən" baleti, "Karvan" simfonik lövhəsi, "Qızılgül" musiqili komediyası, uşaqlar üçün "İsgəndər və çoban" operası və s. əsərlərin müəllifidir. Azərbaycan Dövlət Konservatoriyasının rektoru olub.

**8 may 1930** – Ədəbiyyatşünas, professor Qara Mustafa oğlu Namazov (1930 – 11.5.2016) Ermənistan SSR İcevan rayonunun Əmirxeyir kəndində doğulub. Aşıq şeirinin tarixinə dair tədqiqat əsərlərinin müəllifidir.

**8 may 1983** – Lənkəranda Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun heykəlinin açılışı keçirilib.

**9 may 1909** – Ədəbiyyatşünas alim, akademik Məmməd Cəfər (Məmməd Zeynalabdin oğlu Cəfərov; 1909–1992) Naxçıvanda anadan olub. Ədəbiyyat tarixi və nəzəriyyəsinə dair əsərlərin müəllifidir.

**9 may 1917** – Xalq artisti, tarzən Əliağa Eyvaz oğlu Quliyev (1917 – 11.1.1998) anadan olub.

**9 may 1928** – Xalq artisti, violonçel ifaçısı Sabir Hüseynəli oğlu Əliyev (1928 – 26.10.1983) anadan olub. Milli violonçel ifaçılığı sənətinin əsasını qoyub, Azərbaycan Dövlət Konservatoriyasının professoru olub.

**9 may 1940** – Əməkdar artist Şamil Mahmud oğlu Dəmirçiyev (1940–2002) anadan olub. İrəvan Dövlət Azərbaycan Dram Teatrının aktyoru olub, Musiqili Komediya Teatrında çalışıb.

**9 may 1941** – Tanınmış aktyor Kamil Fərman oğlu Məhərrəmov (1941 – 8.10.1993) Bakıda doğulub. Sumqayıt Dövlət Dram Teatrında çalışıb, "Dərviş Parisi partladır" "Yol əhvalatı" və s. filmlərdə yaddaqalan rollar oynayıb.

**9 may 1945** – Əməkdar rəssam Faiq Nağı oğlu Abdullayev (1945 – 28.10.2020) Gəncə şəhərində doğulub. Gəncə şəhər Uşaq rəssamlıq məktəbinin müəllimi olub.

**9 may 1967** – Əməkdar artist Xanım Abdulqafar qızı Qafarova (1967 – 11.7.2014) Bakıda anadan olub. Akademik Musiqili Teatrda çalışıb, filmlərdə çəkilib.

**9 may 1973** – Bakıda əfsanəvi partizan, Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin abidəsinin açılış mərasimi keçirilib.

**9 may 2012** – Xalq artisti Süleyman Paşa oğlu Nəcəfov (6.8.1948 – 2012) vəfat edib. İrəvan Dövlət Dram Azərbaycan Teatrının aktyoru olub, filmlərə çəkilib.

**9 may 2019** – Görkəmli bəstəkar, Azərbaycanın və SSRİ-nin Xalq artisti, Dövlət mükafatı laureatı Arif Cahangir oğlu Məlikov (13.9.1933 – 2019) vəfat edib. "Məhəbbət əfsanəsi" baleti, "Dalğalar" operettası, 8 simfoniya və s. əsərlərin müəllifidir. Filmlərə ("Sehrli xalat", "Axırıncı aşırım"), tamaşalara musiqi yazıb. Bakı Musiqi Akademiyasının professoru olub.

**10 may 1910** – Əməkdar incəsənət xadimi, rejissor Həsən Səfər oğlu Ağayev (1910–1986) Bakıda doğulub. Gəncə Dövlət Dram Teatrında çalışıb.

**10 may 1922** – Əməkdar rəssam Cabbar Əli oğlu Quliyev (1922 – 27.8.2004) Qərbi Azərbaycanın Zəngibasar mahalında (Ermənistanın Masis rayonu) anadan olub. Aşıq Ələsgər, Xəstə Qasım və başqa el sənətkarlarının portret-obrazlarını yaradıb.

**10 may 1926** – Yazıçı-ssenarist Əhmədağa Muğanlı (Əhmədağa Əkbər oğlu Qurbanov; 1926 – 4.8.2001) Biləsuvar rayonunun Əliabad kəndində doğulub. "Dağlarda döyüş", "Doğma sahillər" və s. bədii filmlərin ssenari müəllifidir.

**10 may 1932** – Əməkdar incəsənət xadimi, rejissor, ssenarist Musa Ağabəy oğlu Bağırov (1932 – 11.5.2022) anadan olub. "Azərbaycanfilm" kinostudiyasında, "Azərbaycantelefilm"də sənədli filmlər çəkib.

**10 may 1934** – Ədəbiyyatşünas, professor Şamil Dünyamalı oğlu Qurbanov (1934–2004) Gürcüstanın Bolnisi rayonunun Faxralı kəndində doğulub.

**10 may 1937** – Xalq şairi Musa Yaqub (Musa Səfiməmməd oğlu Yaqubov; 1937 – 7.5.2021) İsmayıllı rayonunun Buynuz kəndində doğulub. "Ürəyimdə yerin qaldı", "Ruhumla söhbət", "Dövrün dəyirmanı" və s. kitabların müəllifidir. Milli Məclisin deputatı (1995–2000) olub.

**10 may 1938** – Əməkdar mədəniyyət işçisi, miniatürçü rəssam Fəxrəddin Vəli oğlu Əliyev (1938 – 8.2.2022) Ermənistan SSR Meğri rayonunun Nüvədi kəndində anadan olub. AMEA Əlyazmalar İnstitutunda baş rəssam işləyib.

**10 may 1946** – Ədəbiyyatşünas, mətnşünas Maarif Abı oğlu Teymur (1946 – 9.10.2016) Masallı rayonunun Ərkivan kəndində doğulub. Dövlət Ədəbiyyat və İncəsənət Arxivinin direktoru olub.

### Dünya

**7 may 1833** – Alman bəstəkarı, pianoçu və dirijoru Johannes Brahms (1833–1897) anadan olub. Əsərləri: "Alman rekviyemi", "Macar rəqsləri" və s.

**7 may 1840** – Rus bəstəkarı Pyotr İliç Çaykovski (1840–1893) anadan olub. 10 operanın ("Yevgeni Onegin", "Orleanlı qız", "Qaratoxmaq qadın" və s.), 3 baletin ("Qu gölü", "Yatmış gözəl", "Şelkunçik"), simfoniyaların müəllifidir.

**7 may 1861** – Hind şairi, yazıçı, filosof, bəstəkar, ədəbiyyat üzrə Nobel mükafatı (1913) laureatı Rabindranat Taqor (Rabindranath Tagore; 1861 – 7.8.1941) anadan olub.

**7 may 1953** – Türkiyə müğənnisi, bəstəkar Müslüm Gürses (1953 – 3.3.2013) Şanlıurfada doğulub.

**8 may 1903** – Fransız komediya aktyoru Fernandel (əsl adı Fernand Joseph Desire Contandin; 1903–1971) anadan olub. Filmləri: "Mademauzel Nituş", "80 gün dünya ətrafında" və s.

**8 may 1906** – İtaliya kinorejissoru, neorealizmin təmsilçisi Roberto Rosselini (1906–1977) anadan olub. Filmləri: "Roma, açıq şəhər", "Almaniya, sıfırıncı il" və s.

**9 may 1883** – İspan yazıçısı və filosofu Xose Orteqa-i-Qasset (1883–1955) anadan olub. Əsərləri: "Kütlələrin üsyanı", "İncəsənətin humanistsizləşdirilməsi" və s.

**9 may 1924** – Gürcü şairi, nasir Bulat Okucava (1924–1997) Moskvada doğulub. Əsərlərini rusca yazıb. Sözlərinə yazılmış mahnılar bir çox filmlərdə səslənib.

**10 may 1903** – Özbək şairi Qafur Qulam (1903–1966) anadan olub. Nizami Gəncəvinin əsərlərini özbək dilinə tərcümə edib.

**10 may 1888** – Amerika kino bəstəkarı Maks Stayner (Maximilian Raoul Steiner; 1888–1971) anadan olub. Ən yaxşı kino musiqisinə görə üç dəfə "Oskar" alıb.

**Hazırladı: V.Orxan**

# Vindzor Kral Atçılıq Şousunda Azərbaycan şöləni



*əvvəli səh. 1-də*

Milli musiqi alətlərimizlə səslənən "Qarabağ cəngisi"nin sədası altında Əməkdar artist Fərid İbrahimovun rəhbərliyi ilə "Sərhədçi" rəqs ansamblının ifası, DSX süvarilər dəstəsinin Qarabağ atları üzərində hünər nümayişi böyük maraq doğurub. Şou müddətində süvarilərimiz Azərbaycanın və Böyük Britaniyanın bayraqlarını dalğalandırıblar.

Tədbir çərçivəsində Heydər Əliyev Fondunun dəstəyi ilə qurulan, tarix və mədəniyyətimizi, milli xalçaçılıq sənətini tərənnüm edən "Azerbaijan Cultural" tenti də maraqla qarşılanıb.

Kral ailəsinin üzvlərinin də iştirak etdiyi Azərbaycan naharında milli mətbəximizin ləziz nümunələri təqdim olunub. Nahar zamanı təmsilçilərimizin ifasında şou-kompozisiya maraqla izlənilib.

"Vindzor Kral Atçılıq Şousu" çərçivəsində Azərbaycan nümayəndə heyəti Böyük Britaniyanın Kralı III Çarlz ilə görüşüb. Krala tanınmış heykəltaraş Faiq Hacıyevin "Zəfər adlı Dilbaz atı" əsəri və Rəssamlar İttifaqının üzvü Elnur Mahmudovun qədim gümüş alətlərinin təsvir olunduğu rəsm əsəri hədiyyə edilib.

Mayın 4-də Elçin Camallının baş məşqçisi və kapitanı olduğu "Land of Fire" komandası ilə Böyük Britaniyanın "Guards Polo Club" komandası arasında yoldaşlıq oyunu baş tutub. Dünya atçılığına çövkən oyununu bəxş etmiş Azərbaycanın təmsilçiləri ilə Avropada polo oyununun təşəkkül tapdığı Böyük Britaniyanın komandası arasında ilk yoldaşlıq görüşü komandamızın xeyrinə 6:4 hesabı ilə başa çatıb.



# Parisdəki AMM-də Heydər Əliyevin xatirəsinə həsr edilmiş tədbir

Azərbaycanın Parisdəki səfirliyinin Mədəniyyət Mərkəzində Fransa-Azərbaycan Dialoqu Assosiasiyasının (ADFA) təşkilatçılığı və Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Ulu öndər Heydər Əliyevin anadan olmasının ildönümünə həsr edilmiş tədbir keçirilib.



Səfir Leyla Abdullayeva çıxış edərək Heydər Əliyevin ölkəmizin müstəqilliyi və inkişafı istiqamətində müstəsna xidmətlərindən danışıb.

Tədbir konsert proqramı ilə davam edib. "Ecole Normale de Musique de Paris Alfred Cortot" musiqi məktəbinin məzunu, "Qızıl açar" beynəlxalq musiqi müsabiqəsinin laureatı, gənc fleytaçı Ağarəhim Quliyev və gənc pianoçu Eldəniz Ələkbərzadənin ifasında Feliks Mendelson, Qabriel For, Robert Şuman kimi Avropa bəstəkarların əsərləri ilə bərabər, Azərbaycan bəstəkarları Qara Qarayev, Fikrət Əmirovun musiqiləri səsləndirilib.

Tədbir çərçivəsində Azərbaycanın Əməkdar rəssamı Əsmər Nərimanbəyovanın əsərlərindən ibarət "Baharın nəfəsi" adlı sərgi də təqdim olunub.

# Kamança ifaçısı "Roma ulduzları"nın baş mükafatına layiq görülüb

UNESCO-nun Avropa Folklor Musiqi Festivalları Assosiasiyası (EAFF) və "Bridges" Festivalları Fondunun təşkilatçılığı ilə 27 aprel – 2 may tarixlərində "Roma ulduzları" (Stelle di Roma – 2024) beynəlxalq müsabiqəsi keçirilib.




Müsabiqədə İtaliya, Çexiya, Latviya, Rumıniya, Slovakiya, Bolqarıstan, Sloveniya, Estoniya, Yunanıstan və Macarıstandan incəsənət ustaları ilə yanaşı, Azərbaycan Milli Konservatoriyasının müəllimi, TÜRKSOY Xalq Çalğı Alətləri Orkestrinin solisti, beynəlxalq müsabiqələr laureatı, kamança ifaçısı Pərviz Fərhadov da iştirak edib.

"Bayatı-Şiraz", "Şur" muğam kompozisiyaları və Müslüm Maqomayevin "Azərbaycan" mahnısını yüksək peşəkarlıqla ifa edən təmsilçimiz münsiflər heyəti tərəfindən müsabiqənin Qran-pri mükafatına layiq görülüb.

# Türkiyədə milli rəqslərimizin təbliğinə diqqət artırılacaq

Türkiyədəki səfirliyimizin nəzdindəki Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) rəhbəri Samir Abbasov Ankarada fəaliyyət göstərən "Xəzər" Azərbaycan rəqs ansamblının fəaliyyəti ilə tanış olub.



Qeyd edək ki, Azərbaycan Kültür Dərnəyinin nəzdində xalq rəqsləri qrupu 2012-ci ildə yaradılıb. Qrupun bədii rəhbəri Türkiyədə illərdir milli rəqslərimizi yaşadan və təbliğ edən Azərbaycan əsilli sənətçi Gülçöhrə Sibel Sanqudur.

Gülçöhrə Sibel Sanqu kollektiv haqqında məlumat verərək ansamblda Azərbaycan milli rəqslərini yaşadan onlarla yeniyetmə və gəncin birləşdiyini bildirib.

Prezident İlham Əliyevin sərəncamı ilə Ankarada yaradılan Azərbaycan Mədəniyyət Mərkəzinin fəaliyyət istiqamətlərindən söz açan Samir Abbasov AMM-in "Xəzər" Azərbaycan rəqs ansamblı ilə də sıx əməkdaşlıq edəcəyini, milli rəqslərimizin Azərbaycanla bağlı tədbirlərdə, müxtəlif festivallarda təqdim ediləcəyini vurğulayıb.

Samir Abbasov milli rəqslərimizin sirlərinin daha professional öyrənilməsi üçün gələcəkdə Bakı Xoreoqrafiya Akademiyasından mütəxəssislərin ustad dərslərinə dəvət edilə biləcəyini də deyib.

O, Azərbaycan rəqslərini yorulmadan təbliğ edən, öyrədən Gülçöhrə Sibel Sanquya təşəkkürünü bildirib.

Sonra ansamblın ifasına baxış keçirilib. "Uzundərə", "Dərbəndi", "Turacı", "Naz eləmə", "Sarı gəlin" kimi milli rəqslərimiz ifa edilib.

# Britaniya muzeylərinin "səxavətli" addımı

## Müstəmləkə zamanı aparılan mədəni sərvət kirayə şəklində geri qaytarılır

Britaniya müstəmləkəçiliyi dövründə Qanadan qarət olunan mədəni sərvət – qızıldan hazırlanmış boyunluq lövhələr, qılınc, kral kürsüləri və s. ölkəyə qaytarılandan sonra ilk dəfə olaraq sərgilənib. İnsanlar qaytarılan sərvəti görməkdən ötrü Qərbi Afrika ölkəsinin bir çox yerlərindən Kumasi şəhərinə, keçmiş kral Asantehenenin iqamətgahına axışıb gəlirlər.



Qızıl əşyalar və ləl-cəvahirat müasir Qana Respublikası ərazilərinin 1821–1957-ci illərdə Britaniya müstəmləkəçiliyi altında olduğu dövrdə talan edilib. Əslində, onlar Qanaya həmişəlik deyil, kirayə şəklində qaytarılıb.

Böyük Britaniyanın bəzi əsas muzeylərinə öz kolleksiyalarının böyük hissəsini ötürmək və ya idarə etmək qanunla qadağan olunur. Odur ki, Londondakı Britaniya Muzeyindən, eləcə də Viktoriya və Albert Muzeyindən 32 eksponat kirayə hüququna müvafiq olaraq Qanadadır.

"Biz imperiya münaqişəsi və müstəmləkəçiliyin yara vurduğu bu əşyaların əldə olunması ilə bağlı ağrı-acılı tarixi etiraf edirik", – deyə sərginin açılışında Viktoriya və Albert Muzeyinin direktoru Tristram Hant qeyd edib.

Bir qədər əvvəl Kaliforniya Universitetinin (ABŞ) muzeyi də bir qisim artefaktı Qanaya qaytarıb.

# İnformasiya texnologiyalarına 5 trilyon dollar xərclənəcək

## "Süni intellekt atom bombasından da təhlükəli ola bilər"

2024-cü ildə dünya üzrə informasiya texnologiyalarına (İT) xərclər 5 trilyon dolları keçəcək.

ABŞ-nin "Gartner" tədqiqat şirkətinin yaydığı məlumata görə, ötən il qlobal İT xərcləri 3,8% artaraq təxminən 4,7 trilyon dollar təşkil edib, bu il isə 8% artacaq.

Ən böyük məbləğin (1,6 trilyon dollar) rabitə xidmətlərinə xərclənəcəyi gözlənilir. İkinci yeri İT xidmətləri xərcləri (1,5 trilyon dollar), üçüncü yeri proqram təminatı xərcləri (1 trilyon dollar) təşkil edəcək. İnformasiya texnologiyaları cihazlarına qlobal xərclər 688 milyard dollara qədər artacaq. Məlumat mərkəzlərinə xərclənən məbləğ 260 milyard dollar təşkil edəcək.

Bu arada amerikalı milyarder, "Berkshire" şirkətinin baş direktoru Uorren Baffet müasir İT-nin əsas inkişaf istiqamətlərindən olan süni intellektin meydana gəlməsini atom bombasının yaradılması ilə müqayisə edib. Onun sözlərinə görə, süni intellektin intişar tapması dünyanı fırıldaqçılığın artması ilə təhdid edir.

Baffet qeyd edib ki, süni intellektdən istifadə edilməklə yaradılmış şəkillər və videolar o qədər inandırıcı olub ki, onların real olub-olmadığını müəyyən etmək, demək olar ki, mümkün deyil. İnsanları aldatmaq imkanlarını əgər bir sənaye kimi qəbul etsək, bu, bütün dövrlərin ən sürətlə inkişaf edən sənayesi olar.

"Nüvə silahı hazırlayanda cini şüşədən buraxdıq. Bu cin son vaxtlar bəzi dəhşətli işlər görür. Onun gücü məni qorxudur. Süni intellekt də buna bir qədər oxşardır", – deyə o bildirib.

# Yer kürəsini plastiklə ən çox çirkləndirən şirkətlər

"Science Advances" jurnalında dərc edilən araşdırmaya görə, dünyanın plastik çirklənməsinin yarısı 60 şirkətin payına düşür. İlk beşlikdə isə "Philip Morris International", "Danone", "Nestle", "PepsiCo" və "Coca-Cola" yer alıb.

Plastik kütlə tullantılarının dörddə biri onların məhsulları ilə bağlıdır. Qeyd olunur ki, plastik istehsalında hər faiz artıma görə plastik çirklənmədə də ekvivalent artım baş verir.

Araşdırma beş il ərzində davam edib və beynəlxalq könüllülər qrupu 84 ölkədə 1 milyon 870 mindən çox plastik tullantını araşdırıb. Toplanan tullantıların əsas hissəsi qida, içki və tütün məmulatları üçün birdəfəlik qablaşdırmalar olub.

Xatırladaq ki, bu il BMT tərəfindən 22 aprel – Beynəlxalq Yer Gününün mövzusu "Planet plastikə qarşı" elan edilmişdi. Təşkilatın müraciətində vurğulanır ki, ətraf aləmin, xüsusilə okean və dənizlərin plastiklə çirklənməsi dünyanı qlobal ekoloji fəlakətə aparır. Müraciətdə dünya ölkələrinə 2040-cı ilədək bütün növ plastiklərin 60 faiz azaldılması çağırışı da yer alıb.

## Xronoqraf

### 149 il əvvəl...

**7 may 1875-ci ildə** Rusiya ilə Yaponiya arasında ərazi mübadiləsi haqqında saziş imzalanıb. Rusiya Kuril adalarını Yaponiyaya güzəştə gedib. Əvəzində Yaponiya Saxalin adasına iddiasından əl çəkib.

### 103 il əvvəl...

**6 may 1921-ci ildə** I Ümumazərbaycan sovetlər qurultayı (ali qanunverici orqan) işə başlayıb. Qurultayda Azərbaycan SSR-in ilk Konstitusiyası qəbul olunub. Müvəqqəti İnqilab Komitəsi və yerlərdəki inqilab və yoxsul komitələri ləğv edilib, ali qanunverici orqan olaraq Mərkəzi İcraiyyə Komitəsi (MİK) və yerli sovetlər yaradılıb. 1921–1937-ci illərdə ümumilikdə 9 dəfə Ümumazərbaycan sovetlər qurultayı keçirildi və 1938-ci ildə bu qurumu Ali Sovet əvəzlədi.

### 88 il əvvəl...



**6 may 1936-cı ildə** Türkiyədə ilk ali musiqi təhsili müəssisəsi – Ankara Dövlət Konservatoriyası qurulub. Ankara Musiqi Müəllimləri Məktəbinin (1924) bazasında yaradılan konservatoriya hazırda Hacettepe Universitetinin nəzdində fəaliyyət göstərir.

# Tarixdə bu gün



## Olaylar, faktlar (6 – 10 may)

### 79 il əvvəl...

**8 may 1945-ci ildə** faşist Almaniyasının qeyd-şərtsiz kapitulyasiyasına dair akt imzalanıb. Berlin yaxınlığındakı Karlshorst şəhərciyində yerli vaxtla saat 22:43-də imzalanan akta Almaniya tərəfdən Vermaxt (alman ordusu) baş qərargahının rəisi general-feldmarşal V.Keytel imza atmışdı. SSRİ tərəfdən sənədi marşal G.Jukov, müttəfiqlər adından Britaniyanın aviasiya marşalı A.Tedder imzalamışdı. Akt imzalananda Moskva vaxtı ilə artıq ayın 9-u olduğundan SSRİ-də Qələbə Günü 9 may elan olundu. Avropada isə faşizm üzərində qələbə mayın 8-də qeyd edilir.

### 74 il əvvəl...

**9 may 1950-ci ildə** "Şuman bəyannaməsi" (Fransa xarici işlər naziri Robert Şuman tərəfindən oxunan və Fransa ilə Almaniya arasında kömür və polad sənayeçilərinin ortaq fəaliyyət təşəbbüsünü irəli sürən bəyannamə) elan olunub. "Şuman bəyannaməsi" Avropa İttifaqının ilk təməl təşəbbüsü sayılır. 9 may Aİ ölkələrində "Avropa Günü" kimi qeyd olunur.

### 32 il əvvəl...

**8 may 1992-ci ildə** Ermənistan silahlı qüvvələri Azərbaycanın Şuşa şəhərini işğal ediblər. 28 il 6 ay işğal altında qalan Şuşa şəhəri 2020-ci ilin 44 günlük Vətən müharibəsində, noyabrın 8-də müzəffər Azərbaycan Ordusu tərəfindən azad edildi.

### 20 il əvvəl...

**10 may 2004-cü ildə** Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin ictimai-siyasi və dövlətçilik irsinin öyrənilməsi və təbliği, bu irsdən bəhrələnərək sosial, xeyriyyə, maarifçilik, mədəniyyət və digər istiqamətlərdə layihələr həyata keçirmək məqsədilə yaradılan Heydər Əliyev Fondu fəaliyyətə başlayıb. Fonda Azərbaycanın birinci xanımı Mehriban Əliyeva rəhbərlik edir.

### 12 il əvvəl...



**10 may 2012-ci ildə** Bakı şəhərində Heydər Əliyev Mərkəzinin açılışı olub. Mərkəzin orijinal memarlıq üslubu olan binası (memar – Zaha Hadid, Böyük Britaniya) Prezident İlham Əliyevin 29 dekabr 2006-cı il tarixli sərəncamına əsasən inşa edilib.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiymətі:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5086. **Sifariş:** 1048
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641